HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 17 (911) ■ 09 may 2018 www.vergiler.az Qiyməti: 60 qəp.

# Azərbaycanın bütün bölgələri davamlı inkişaf və tərəqqi yolundadır

## Prezident İlham Əliyev Xaçmaz və Xızı rayonlarında səfərdə olub

**Azərbaycan Prezidenti İlham Əliyev mayın 4-də Xaçmaz rayonuna səfər edib. Dövlətimizin başçısı əvvəlcə ümummilli lider Heydər Əliyevin Xaçmaz şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub. Abidənin ucaldığı Heydər Əliyev parkında və bütövlükdə rayonda görülən işlər barədə ölkə Prezidentinə məlumat verilib.**

Prezident İlham Əliyev Xaçmaza səfəri çərçivəsində Çarxı-Qalağan-Hacılar-Xanlıqoba-Sayad-Məmmədxanlı avtomobil yolunun yenidənqurma və bərpadan sonra açılışında iştirak edib. Dövlətimizin başçısı «Azərxalça» Açıq Səhmdar Cəmiyyətinin Xaçmaz filialının açılışında da olub. Bildirilib ki, ümumi sahəsi 1252,9 kvadratmetr olan filialın binası 0,37 hektar sahədə yerləşir. Burada 150 nəfər toxucu, 12 nəfər inzibati-təsərrüfat işçisi fəaliyyət göstərəcək. Bina toxuculuq emalatxanası, rəssam otağı, anbar, yeməkxana, tibb otağı, xalça-satış salonu və sair bölmələrdən ibarətdir. Emalatxanada müxtəlif ölçülü 43 dəzgahda Azərbaycan xalçaları toxunacaq. Əsasən, Quba, Qusar, Xaçmaz, Siyəzən, Şabran rayonlarının kəndlərində toxunan tarixi və orijinal Şirvan çeşniləri əsasında xalçaların toxunmasına üstünlük veriləcək. Bu çeşnilər dünya muzeylərində, şəxsi kolleksiyalarda mühafizə olunan, həmçinin respublikanın ayrı-ayrı bölgələrindən toplanılan qədim xalçalar əsasında «Azərxalça»nın rəssamları tərəfindən hazırlanıb.

Prezident İlham Əliyev müəssisənin kollektivi ilə görüşüb, söhbət edib.

Həmin gün Xaçmaz şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin istismara verilməsi mərasimində və «Azərsu» Açıq Səhmdar Cəmiyyətinin Xaçmaz idarəsinin inzibati binasının açılışında iştirak edən dövlətimizin başçısına «Xaçmaz şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması» layihəsi barədə məlumat verilib. Bildirilib ki, Azərbaycan Hökuməti və Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi tərəfindən maliyyələşən «Xaçmaz şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması» layihəsi 2030-cu ilə perspektiv inkişaf nəzərə alınmaqla Xaçmaz şəhərində 47 min nəfərin içməli su və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Rayonun 5 kəndi də daxil olmaqla, layihədən 58 min nəfər faydalanacaq. Layihə Xaçmaz şəhəri ilə yanaşı, Qusar, Naftalan, Qobustan və Xızı şəhərlərinin də içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulmasını əhatə edir. Artıq bu şəhərlərdə su və kanalizasiya şəbəkələrinin tikintisi yekunlaşıb. Layihənin sonuncu mərhələsində tullantı sutəmizləyici qurğuların inşası həyata keçiriləcək. Ümumilikdə 50 şəhər və rayon mərkəzində içməli su təchizatı və kanalizasiya layihələri icra olunur. Bu şəhərlərin 25-də su və kanalizasiya şəbəkələrinin, 10-da isə su şəbəkəsinin inşası yekunlaşdırılıb. Bu ilin sonuna qədər daha bir neçə şəhərdə işlərin başa çatdırılması nəzərdə tutulub.

Prezident İlham Əliyev Xaçmaza səfəri çərçivəsində Gəndob-Xaçmaz-Yalama-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 24-48 kilometrlik hissəsini təşkil edən Xaçmaz-Xudat avtomobil yolunun açılışını edib.

Mayın 4-də Prezident İlham Əliyev Xızı rayonuna gəlib. Dövlətimizin başçısı əvvəlcə Xızı şəhərinin mərkəzindəki Heydər Əliyev Parkında Ümummilli Liderin abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub. Parkda görülən işlər, həmçinin rayonda həyata keçirilən abadlıq və quruculuq tədbirləri barədə Prezident İlham Əliyevə məlumat verilib.

Sonra dövlətimizin başçısı «Xızı şəhərində və Altıağac qəsəbəsində içməli su təchizatı sistemlərinin yenidən qurulması və kanalizasiya şəbəkəsinin yaradılması» layihəsinin yekunlaşması ilə bağlı keçirilən mərasimdə iştirak edib. Azərbaycan Prezidenti əvvəlcə rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb.

Görüşdə çıxış edən dövlətimizin başçısı bildirib ki, Xızıda bir sıra mühüm sosial layihələr icra edilir: «Rayonda 10-na yaxın məktəb tikilmişdir, infrastrukturla bağlı olan digər layihələr icra edilir, qazlaşdırma 90 faizdən çoxdur. Demək olar ki, artıq bütün yaşayış məntəqələri qazla təmin olunub. Əminəm ki, gələcək dövrdə Xızıda qazlaşdırma 100 faizə çatacaq. Elektrik enerjisi ilə bağlı heç bir problem yoxdur. Əksinə, indi Xızı rayonu bizim ümumi enerji sistemimizi böyük həcmdə elektrik enerjisi ilə təmin edəcək. Yeni Yaşma Külək Elektrik Stansiyası artıq fəaliyyətə başlayır, yoldan keçəndə də bunu görmək mümkündür. Kənd yolları salınır. Bu gün bir yolun açılışını qeyd edəcəyik. Bir sözlə, Xızı rayonunun sosial-iqtisadi inkişafı uğurla gedir. Ümid edirəm ki, gələcək illərdə kənd təsərrüfatı sürətlə inkişaf edəcək. Çünki Taxtakörpü su anbarının tikintisi və Samur-Abşeron suvarma sisteminin yenidən qurulması nəticəsində bütövlükdə bu bölgədə 30 min hektar torpaq sahəsi su ilə təmin ediləcəkdir. Bunun 12 min hektarı Xızı rayonunun payına düşür».




Xızı rayonuna səfəri çərçivəsində dövlətimizin başçısı başlanğıcını Giləzi-Xızı yolunun 34-cü kilometrliyindən götürən və əsaslı şəkildə yenidən qurulan Fındığan kəndinədək olan yolun açılışını edib. Bildirilib ki, 4-cü texniki dərəcəyə malik olan yolun ümumi uzunluğu 5 kilometr, hərəkət hissəsinin eni 6 metrdir. İkizolaqlı yolun yenidən qurulması zamanı genişmiqyaslı torpaq və asfalt-beton işləri görülüb. Yol boyunca 226 metr müxtəlif diametrli suötürücü borular tikilib, zəruri yerlərdə yol nişanları və göstərici lövhələr quraşdırılıb, cizgi xətləri çəkilib. Bu yolun istifadəyə verilməsi Fındığan kənd sakinlərinin Giləzi-Xızı avtomobil yoluna və Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomagistralına çıxışını təmin edir.

Sonra dövlətimizin başçısına tikintisi başa çatmış Xızı-Altıağac avtomobil yolunda görülmüş işlər barədə məlumat verilib. Qeyd olunub ki, uzunluğu 20,8 kilometr olan üçüncü dərəcəli bu yol hər birinin eni 3,5 metr olmaqla 2 hərəkət zolağından ibarətdir. Yolboyu 1 körpü keçidi təmir olunub, müxtəlif diametrli 48 ədəd su ötürücü boru, 14 kilometrə yaxın açıq və qapalı su ötürücü kanal tikilib. Xızı-Altıağac avtomobil yolunun istifadəyə verilməsi nəticəsində sakinlərin gediş-gəlişində, xüsusən də payız-qış mövsümündə yaranan çətinliklər tamamilə aradan qalxıb. Bu yol rayonda dörd min nəfər əhalinin yaşadığı 11 məntəqəni birləşdirir.

Daha sonra Prezident İlham Əliyevə Bakı-Quba Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 56-cı kilometrliyindən ayrılan Yeni Yaşma kənd yolunda aparılmış əsaslı təmir işləri barədə məlumat verilib. Bildirilib ki, bu avtomobil yolu uzun illər əsaslı təmir olunmadan istismar edildiyindən tamamilə yararsız hala düşmüşdü. Nəqliyyat vasitələrinin normal hərəkəti üçün çətinliklər yarandığından, yolun əsaslı təmir olunmasına zərurət yaranmışdı. Uzunluğu 6 kilometr olan bu yol dövlətimizin başçısının tapşırığı ilə əsaslı şəkildə təmir edilib, bütün infrastruktur müasir tələblər səviyyəsində qurulub.

# Paytaxtda yeni yol qovşağı istifadəyə verilib

**Mayın 7-də Bakı Olimpiya Stadionundan Heydər Əliyev prospektinə keçid və müxtəlif səviyyəli yol qovşağının açılışı olub. Azərbaycan Prezidenti İlham Əliyev açılışda iştirak edib.**

Dövlətimizin başçısına layihənin texniki göstəriciləri barədə məlumat verilib. Bildirilib ki, burada inşa edilən tunelin qapalı hissəsinin uzunluğu 130, açıq hissəsinin uzunluğu 366 metr olmaqla ümumi uzunluğu 496 metrə bərabərdir. Tunelin hərəkət hissəsinin eni 10 metrdir. Layihə çərçivəsində 193 metr yanaşma yolları inşa olunub, həmçinin Sabunçu yol qovşağınadək uzunluğu 702, eni isə 12 metr olan yeni yol hissəsi salınıb. Layihə zamanı inşa olunan biraşırımlı körpünün uzunluğu 27 metr, eni isə 12 metrdir. Bu yol qovşağının inşası zamanı genişmiqyaslı tikinti-quraşdırma işləri görülüb, tunel və yan yollarda sutkanın qaranlıq saatlarında təhlükəsiz hərəkət etmək üçün işıq dirəkləri qoyulub, iki nasosxana quraşdırılıb, tikinti sahəsinə düşən kanalizasiya və rabitə xətləri köçürülüb.

Qeyd olunub ki, tunelin inşasında məqsəd günün pik saatlarında metronun «Koroğlu» stansiyasının qarşısında yaranan tıxacı aradan qaldırmaqdır. Bu layihənin icrası burada yarana biləcək tıxacların qarşısının alınmasında mühüm rol oynayır. Belə ki, Ziya Bünyadov prospekti istiqamətindən gələn avtonəqliyyat vasitələri Böyük Şor yol qovşağına daxil olmadan, həmçinin metronun «Koroğlu» stansiyasının qarşısından keçmədən yeni avtomobil tuneli ilə Ziya Bünyadov prospektindən Olimpiya kəndi istiqamətinə və oradan da Bakı Olimpiya Stadionunun arxa hissəsində salınan yoldan və tuneldən istifadə etməklə hava limanı istiqamətinə hərəkət edəcək.



Yollarda tıxacların azaldılması məqsədilə layihə çərçivəsində Heydər Əliyev prospektində - Sabunçu yol qovşağından Böyük Şor yol qovşağınadək olan hissədə təmir-tikinti işləri aparılıb. Əsaslı şəkildə yenidən qurulan yolun bu hissəsinin uzunluğu 2,1 kilometr, eni isə ərazilərdən asılı olaraq 26-36 metr təşkil edir. Bu hissədə intensiv hərəkət nəticəsində asfalt-beton örtüyünün üst qatında aşınmalar yaranmışdı. Bu səbəbdən də asfalt-beton örtüyünün aşınma qatının yenilənməsinə ehtiyac yaranmışdı. Təmir işləri çərçivəsində yolboyu köhnə asfalt-beton örtüyünün üst qatı frezlənərək kənara daşınıb, yola ikiqat olmaqla yeni asfalt-beton örtüyü döşənib. Ümumilikdə, bu işlər Sabunçu yol qovşağından şəhər mərkəzinə doğru olan istiqamətdə üç hərəkət zolağında aparılıb. Görülən təmir-tikinti işləri zamanı yol ayrıcında quraşdırılmış əyrixətli dəmir tirlər və köhnə səki daşları sökülərək kənarlaşdırılıb, buraya yeni səki daşları düzülüb.

Prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsib.

# Rəsmi xronika

■ Azərbaycan Prezidenti Mətbuat Xidmətinin yaydığı məlumata görə, mayın 7-də dövlətimizin başçısı İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edib. Vladimir Putini Rusiya Federasiyasının Prezidenti vəzifəsinin icrasına başlaması münasibətilə təbrik edən Azərbaycan Prezidenti ona Rusiya xalqının firavanlığı naminə fəaliyyətində yeni uğurlar arzulayıb. Dövlətimizin başçısı, eyni zamanda, Rusiya Prezidentinə qarşıdan gələn 9 May - Qələbə günü münasibətilə də təbriklərini çatdırıb.

Prezident Vladimir Putin təbrikə və göstərilən diqqətə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib və öz növbəsində dövlətimizin başçısını qarşıdan gələn 9 May - Qələbə günü münasibətilə təbrik edib. Söhbət zamanı dövlət başçıları Azərbaycan-Rusiya strateji tərəfdaşlıq əlaqələrinin uğurlu inkişafını qeyd edib, ikitərəfli münasibətlərimizin perspektivləri ətrafında fikir mübadiləsi aparıblar.

■ Prezident İlham Əliyev mayın 7-də Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin sədri, Avropa Mühafizəkarlar və İslahatçılar Qrupunun üzvü, Böyük Britaniyadan olan deputat Sayyad Kərimin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Avropa İttifaqı ilə əlaqələrin uğurla inkişaf etdiyini bildirən dövlətimizin başçısı qeyd edib ki, Azərbaycan Aİ-yə üzv dövlətlərin üçdəbiri ilə artıq strateji tərəfdaşlıq sənədi imzalayıb və ya qəbul edib. Bunu əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirən Prezident İlham Əliyev əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, təhlükəsizlik, mədəni, ticarət və enerji təhlükəsizliyi sahələrində həyata keçirildiyini qeyd edərək Avropa İttifaqının Azərbaycanın ən böyük ticarət tərəfdaşı olduğunu, öz növbəsində, Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolunun getdikcə daha da artdığını vurğulayıb.

Sayyad Kərim son iki il ərzində Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın çox müsbət və konstruktiv istiqamətdə inkişaf etdiyi bildirilib. O, Avropa İttifaqı ilə Azərbaycan arasında 2017-ci ildə başlanan danışıqların uğurla davam etdirildiyini, qurumun Azərbaycanla iqtisadi, nəqliyyat, enerji, investisiya, parlamentlərarası əlaqələr və digər sahələrdə əməkdaşlığı üçün böyük imkanların olduğunu diqqətə çatdırıb.

Sahibkarlarla görüş — səh. 2

Düzgün uçot dövlətin iqtisadi yüksəlişinə xidmət deməkdir — səh. 3

Əmək hüququnu pozanlara qarşı mübarizə sərtləşdirilir — səh. 4

Şəffaflıq və hesabatlılıq inkişafın əsas şərtlərindəndir — səh. 5

# Sahibkarlarla görüş



May ayının 3-də Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) nümayəndələri, sahibkarlıq assosiasiyaları və bir sıra iş adamları ilə görüş keçirilib. Vergilər naziri Mikayıl Cabbarov, ASK-nın sədri Məmməd Musayev, ASK-ya üzv olan şirkətlərin və assosiasiyaların təmsilçilərinin iştirak etdikləri görüşdə qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub, iş adamlarını maraqlandıran suallar ətrafında fikir mübadiləsi aparılıb.

Vergilər naziri vergi sistemində aparılan dəyişikliklərin başlıca prinsipləri, vergi ödəyiciləri ilə münasibətlərdə şəffaflığın təmin olunması, onların qarşılaşdıqları məsələlərin həlli istiqamətində görülən işlər, həmçinin biznes sektorundan gözləntilərlə bağlı çıxış edib.

Görüşdə Vergilər Nazirliyi ilə sahibkarlar arasında müzakirə platforması kimi çıxış edəcək Əməkdaşlıq Şurasının yaradılması barədə razılıq əldə olunub.

# Vergilər Nazirliyində yeni departament yaradılıb

Azərbaycan Respublikası Prezidentinin «Ölkədə idxal-ixrac əməliyyatlarına nəzarət sisteminin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında» 20 aprel 2018-ci il tarixli Sərəncamından irəli gələn vəzifələrin həyata keçirilməsi məqsədilə Vergilər Nazirliyində yeni struktur - Vergilər Nazirliyi yanında İdxal-ixrac əməliyyatları üzrə nəzarət departamenti yaradılıb.

Departamentin yaradılmasında məqsəd maliyyə nəzarəti sahəsində uçotun şəffaflaşdırılması, büdcə yığımlarının artırılması, qeyri-neft məhsullarının ixracı üzrə prosedurların sadələşdirilməsi, ixracın həcminin artırılması və bu istiqamətdə dövlətin fiskal siyasətini həyata keçirən orqanlarının fəaliyyətinə dəstək verilməsi və idxal-ixrac əməliyyatlarına nəzarət sisteminin təkmilləşdirilməsidir.

# ƏDV sub-uçot hesabı üzrə əməliyyatlar

Əlavə dəyər vergisi (ƏDV) ödəyiciləri «Vergi ödəyicisinə verilmiş elektron vergi hesab-fakturası üzrə alınmış malların (iş və xidmətlərin) dəyəri ödənilərkən ƏDV-nin ödənilməsi, ƏDV-nin depozit hesabında uçotun aparılması, ƏDV-nin hərəkəti, bu hesab üzrə aparılan əməliyyatlardan ƏDV-nin əvəzləşdirilməsi və dövlət büdcəsinə köçürülməsi Qaydaları»na əsasən, «Vahid depozit hesabı vasitəsilə ƏDV üzrə elektron ödənişlərin və əvəzləşmələrin aparılması» e-xidmətindən istifadə etməklə öz ƏDV sub-uçot hesabı üzrə real vaxt rejimində müvafiq əməliyyatlar aparırlar.

Bu xidmətdən istifadə etmək üçün vergi ödəyiciləri gücləndirilmiş elektron imzadan (o cümlədən «ASAN imza»dan) istifadə etməklə sistemə daxil olaraq, ƏDV depozit hesabı üzrə köçürmə əməliyyatları apara bilirlər.

Vergi ödəyiciləri ƏDV-nin büdcəyə ödənilməsi, verilmiş elektron vergi hesab-fakturası üzrə alınmış malların (iş və xidmətlərin) dəyəri ödənilərkən ƏDV-nin digər vergi ödəyicilərinin sub-uçot hesablarına köçürülməsi, Dövlət Gömrük Komitəsinə ödənilməsi, digər vergilərin dövlət büdcəsinə ödənilməsi kimi əməliyyatları həyata keçirə bilirlər.

ƏDV sub-uçot hesabından dövlət büdcəsinə ödənişi həyata keçirmək üçün əməliyyat növündən «Büdcəyə ödəniş əməliyyatı» bəndi qeyd edilir. Siyahıdan «Alanın qeydiyyatda olduğu xəzinə orqanı» seçilir, «Ödənişin məbləği», «Ödənişin təyinatı» daxil edilir və «Qəbul» düyməsi sıxılır. Nəticədə daxil edilmiş məbləğ vergi ödəyicisinin sub-uçot hesabından büdcəyə köçürülür.

ƏDV üzrə büdcəyə olan borclar qanunvericilikdə nəzərdə tutulmuş müddətdə ödənilmədiyi halda, bu məbləğ vergi ödəyicisinin sub-uçot hesabından avtomatik olaraq büdcəyə köçürülür. Vergi ödəyicisi tərəfindən ƏDV sub-uçot hesabından dövlət büdcəsinə ödəniş iş günü ərzində saat 11:30-dək proqram təminatında təsdiq edildikdə, vəsaitin dövlət büdcəsinə ödənilməsi həmin gün, saat 11:30-dan sonra proqram təminatında təsdiq edildikdə isə növbəti iş günündə həyata keçirilir. Vergi ödəyicisi tərəfindən ƏDV sub-uçot hesabından dövlət büdcəsinə qeyri-iş günündə ödəniş həyata keçirildiyi zaman həmin vəsaitin dövlət büdcəsinə ödənilməsi üçün Vergilər Nazirliyi tərəfindən ödəniş tapşırığı qeyri-iş günündən sonra gələn ilk iş günündə hazırlanıb banka təqdim olunur.

**FƏXRİYYƏ**

# SABAH-dan uğurlu karyeraya doğru...

## Vergilər Nazirliyinin əməkdaşları SABAH qruplarının 4-cü kurs tələbələri ilə görüş keçiriblər

Təhsil və Vergilər nazirlikləri arasında imzalanmış əməkdaşlıq memorandumu çərçivəsində keçirilən görüşün məqsədi SABAH qrupu tələbələrinin Vergilər Nazirliyi və onun tabeliyində olan struktur bölmələrində işə qəbul qaydaları və prosedurları haqda məlumatlandırılmasıdır.

Memorandum vergi sahəsində gənc və peşəkar kadrların yetişdirilməsini, ali təhsil müəssisələri ilə birgə vergi ixtisası üzrə vahid tədris proqramlarının tərtibini, təhsilalan və təhsilverənlərin peşəkar inkişafına müxtəlif vasitələrlə (təlim, müsabiqə, seminar və s.) dəstək göstərilməsini, Vergilər Nazirliyi əməkdaşlarının ali təhsil müəssisələrində akademik fəaliyyətə cəlb olunması və digər nazirliklərarası əməkdaşlıq məsələlərini əhatə edir.

Memarandum imzalandıqdan sonra keçirilən ilk görüşdə tələbələrin gələcək karyera yüksəlişləri ilə bağlı sorğuları cavablandırılmışdır. Tədbirdə çıxış edən Vergilər Nazirliyi aparatının rəhbəri Nigar Alimova tələbələrə öz uğur hekayəsini təqdim etmiş, yüksəliş yolunda qarşılaşdığı çətinliklərdən və onların aradan qaldırılması üsullarından danışmışdır.

İnsan resursları departamentinin baş direktorunun müavini Kamran Məmişov isə SABAH qrupu tələbələrinə Vergilər Nazirliyində işə qəbulla bağlı karyera imkanları haqqında məlumat vermişdir.

Bildirilmişdir ki, dövlət vergi orqanlarına işə qəbul 2005-ci ildən başlayaraq müsabiqə əsasında həyata keçirilir və işə qəbulun müsabiqə və rəqabətlilik əsasında təşkili baxımından Vergilər Nazirliyi öndə gələn dövlət orqanlarındandır: «İndiyədək dövlət vergi orqanlarına işə qəbul üzrə 13 müsabiqə yekunlaşdırılmış, 1356 nəfər vergi orqanlarında işlə təmin edilmişdir. Bu, hazırda vergi orqanlarında xidmət edənlərin yarısından çoxunu təşkil edir. Sevindirici haldır ki, həmin şəxslərdən bir qismi artıq rəhbər vəzifələr tutur. Hazırda 14-cü müsabiqə davam edir».

> İndiyədək dövlət vergi orqanlarına işə qəbul üzrə 13 müsabiqə yekunlaşdırılmış, 1356 nəfər vergi orqanlarında işlə təmin edilmişdir

Tələbələrin nəzərinə çatdırılmışdır ki, 2018-ci ilin əvvəlindən vergi siyasətində əsaslı islahatların başlanılması istiqamətində əhəmiyyətli əməli işlər görülmüş, bir sıra nəticələr əldə edilmişdir: «Təbii ki, islahatların yüksək keyfiyyətlə həyata keçirilməsi üçün peşəkar kadrlar tələb olunur. Bu baxımdan, biz, ilk növbədə, SABAH qruplarının tələbələri kimi savadlı, bacarıqlı və hazırlıqlı gənclərimizin potensialına və enerjisinə güvənirik».

**F. İKRAMQIZI**

# Riskli vergi ödəyiciləri ilə məlumatlandırma və maarifləndirmə işləri aparılır

**Sahibkarların vergi intizamına əməl edilməsi baxımından «Vergi ödəyicilərinə xidmətlərin göstərilməsi Qaydaları»nda nəzərdə tutulmuş risk meyarlarına uyğun və nazirliyin aidiyyəti strukturlarından alınmış məlumatlara əsasən müəyyən edilmiş riskli vergi ödəyiciləri ilə ayrı-ayrı istiqamətlər üzrə məlumatlandırma və maarifləndirmə işləri aparılır.**

Bu ilin birinci rübündə vergi ödəyicilərinin təsərrüfat subyektlərinin (obyektlərinin) fəaliyyəti dayandırıldıqdan sonra həmin təsərrüfat subyektinin fəaliyyət göstərib-göstərməməsinin müəyyən edilməsi məqsədilə 7010 obyektdə müşahidə-baxış tədbirləri keçirilmiş, nəticədə 617 obyektdə vergi ödəyicisinin özünün, 197 obyektdə isə digər vergi ödəyicisinin fəaliyyət göstərdiyi müəyyən olunmuş və bununla bağlı müvafiq tədbirlər görülmüş, 6196 obyektin isə müşahidə zamanı bağlı olduğu müvafiq aktla rəsmiləşdirilmişdir. Fəaliyyətini uzun müddət dayandırmış vergi ödəyicilərinin fəaliyyətlərinin dayandırma müddətinin başa çatmasına 10 gün qalanadək, habelə vergi ödəyicilərinin fəaliyyətlərinin hər hansı digər səbəbdən bərpası (aktivləşməsi) ilə əlaqədar 17.310 vergi ödəyicisi ilə müvafiq məlumatlandırma işləri aparılmaqla öhdəlikləri barədə, o cümlədən fəaliyyət göstərmədikləri halda yenidən müvafiq arayış təqdim etməli olduqları barədə məlumatlar verilmişdir. «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz»in qüvvədə olma müddəti başa çatmış, lakin yeni qəbz almamış vəziyyəti aktiv olan 1985 vergi ödəyicisi məlumatlandırılmış və onlardan 1266-sı və ya 63,8%-i üzrə risk aradan qaldırılmışdır. Bununla da aprelin 1-i tarixinə sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz almış vergi ödəyicilərinin sayı 3360-a (təqdim olunmuş sabit vergi üzrə qəbz sayı 12.255) çatmışdır.

Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi halları üzrə keçirilən vergi nəzarəti tədbirlərindən sonra nöqsan aşkar edilmiş 78 vergi ödəyicisinin leqallaşdırılmamış 240 işçi ilə əmək münasibətlərinin rəsmiləşdirilməsi istiqamətində müvafiq məlumatlandırma və təbliğat işləri aparılmış, nəticədə 154 ( 64,2%) işçi üzrə risk aradan qaldırılmışdır. Bakı şəhərində çoxmənzilli yaşayış binalarının tikintisini həyata keçirən 70 podratçı vergi ödəyicisinin, həmçinin aktiv NKA-ların sayına müvafiq ehtimal edilən minimum işçi sayı ilə ƏƏSMN-nin baza məlumatlarında olan işçi sayı arasında fərq olan 85 riskli vergi ödəyicisi əmək müqaviləsinin rəsmiləşdirilməsi istiqamətində məlumatlandırılmışdır.

Vergi orqanlarında uçotda olmayan 1014 şəxsə göstərilmiş ünvanlı məlumatlandırma xidmətləri çərçivəsində onlara xəbərdarlıq edilmişdir. Vergi Məcəlləsinin 16.1-ci maddəsinə əsasən vergi orqanlarından vergi ödəyicisinin eyniləşdirmə nömrəsinin alınmasının zəruriliyi diqqətə çatdırılmışdır. Vurğulanmışdır ki, Vergi Məcəlləsinin 33.2-ci maddəsinə əsasən vergi ödəyicisinin filialı, nümayəndəliyi və ya digər təsərrüfat subyekti (obyekti) olduqda, vergi ödəyicisi həm özünün olduğu yer üzrə, həm də filialının, nümayəndəliyinin və ya digər təsərrüfat subyektinin (obyektinin) olduğu ünvan üzrə vergi uçotuna alınmalıdır: əks halda, onlara qarşı qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyət tədbirləri görüləcəkdir.

*Hazırladı:*
**Rəşad SADIQOV**

# Dövlət vergi orqanlarına işə qəbul davam edir



Dövlət vergi orqanlarına işə qəbul üzrə növbəti – 14-cü müsabiqə 2017-ci il dekabrın 1-də elan edilmiş, ilkin sənəd qəbulu 5-30 dekabr tarixlərində aparılmışdı. Lakin müsabiqə prosesində bir sıra yeniliklərin tətbiqinin nəzərdə tutulması, habelə sonradan yaranmış vakant vəzifələrin təhlili sənəd qəbulu müddətinin uzadılması zərurətini yaratdı.

Buna görə də müsabiqə üzrə 2018-ci il aprelin 30-dan mayın 9-dək əlavə sənəd qəbulu müddəti elan edildi. Müsabiqədə iştiraka yeni qoşulmaq istəyən vətəndaşlar göstərilən müddətdə Vergilər Nazirliyinin rəsmi internet saytına daxil olaraq elektron ərizə formasını doldurub göndərdilər və vakant vəzifələrin tutulması şərtlərinə cavab verən vətəndaşlar müsabiqədə namizəd kimi qeydə alınacaqlar.

Nəzərinizə çatdırırıq ki, dövlət vergi orqanlarına işə qəbulla əlaqədar 5-30 dekabr 2017-ci il tarixlərində qeydiyyatdan keçmiş vətəndaşların müsabiqədə iştirak hüququ saxlanılıb.

Müsabiqə ilə bağlı suallarımıza Vergilər Nazirliyinin İnsan resursları departamentinin baş direktoru səlahiyyətlərini icra edən Elməddin Süleymanov cavab verir.

***- Elməddin müəllim, dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün keçiriləcək müsabiqənin şərtlərindəki əsas dəyişikliklər nədən ibarətdir?***

- 2018-ci ilin əvvəlindən dövlət vergi siyasətində əsaslı islahatların aparılmasına başlanılıb və təbii ki, kadr islahatları da bu prosesin ayrılmaz tərkib hissəsidir. Vergi islahatlarının uğurlu tətbiqi və davam etdirilməsi, ilk növbədə, peşəkar kadr hazırlığından asılıdır. Bu gün dövlət vergi orqanlarının qarşısında duran yeni hədəflər kadr seçiminin ümumi məqsədlərlə uzlaşdırılmasını zəruri edir.

Hazırda vakant vəzifələr, əsasən, vergi qanunvericiliyinin və öhdəliklərinin icrasına nəzarət sahəsini əhatə edir. Müsabiqənin test imtahanı mərhələsində namizədlərin biliklərinin daha effektiv qiymətləndirilməsi məqsədilə ekspertlər tərəfindən təhlillər aparılıb, əvvəlki müsabiqələrdə namizədlərin test tapşırıqlarına verdikləri cavablar qiymətləndirilib.

Beləliklə, bu müsabiqədə bir sıra yeniliklər nəzərdə tutulub. Test proqramı və test tapşırıqlarının tərtibində istifadə edilmiş ədəbiyyat siyahısı yenilənib, yığcamlaşdırılıb. Vətəndaşlar yenilənmiş ədəbiyyat siyahısını nazirliyin rəsmi internet saytından əldə edə bilərlər. İnformatika və məntiq test bloklarının namizədlərin bilik və bacarıqlarının yoxlanılmasında rolunun gözlənilən səviyyədə olmadığı nəzərə alınaraq, həmin bloklar test imtahanından çıxarılıb. Bunların əvəzinə isə test imtahanında namizədlərə Vergi Məcəlləsinin xüsusi hissəsindən və digər aidiyyəti qanunvericilik aktlarından daha çox sualların təqdim edilməsi, həmçinin namizədlərin biliklərinin, tətbiqi bacarıqlarının və analitik təhlil qabiliyyətlərinin yoxlanılması məqsədilə məsələ tipli test tapşırıqlarının sayının artırılması nəzərdə tutulub. Sənəd qəbulunda tətbiq edilən yeniliklərdən biri tələb olunan ali təhsil ixtisaslarının cari vakant vəzifələrin təyinatı ilə uyğunlaşdırılaraq dəqiqləşdirilməsidir.

Test imtahanında mümkün olan baldan ən azı 70 faizini toplamış namizədlər müsahibəyə buraxılacaq. Müsahibə mərhələsində namizədlərin bilikləri ilə yanaşı, onların şəxsi keyfiyyətləri, bacarıq və qabiliyyətləri, habelə ümumi dünyagörüşlərinə xüsusi diqqət yetiriləcək.

***- Müsabiqədə uğur əldə edən namizədlərin təyinatı necə aparılır?***

- Uğur qazanan namizədlər dövlət vergi orqanlarının kadr ehtiyatına daxil edilir və müxtəlif göstəriciləri (müsabiqə balı, ixtisası, yaşayış yeri və s.) nəzərə alınmaqla vakant vəzifələrə təyin olunurlar. Kadr ehtiyatında qalma müddəti 2 ildir. Müsabiqənin bütün mərhələləri barədə məlumatlar - sənəd qəbulu üzrə statistika, test imtahanın və müsahibənin nəticələri nazirliyin internet saytında yerləşdirilməklə ictimaiyyətə çatdırılır.

***- Vergilər Nazirliyi yeni işə qəbul ediləcək əməkdaşlarla işini hansı formada quracaq?***

- Təbii ki, əməkdaşların xidmətə qəbulu ilə işlər bitmiş hesab edilmir. Onların yeni iş mühitinə uyğunlaşması, zəruri praktiki bilik və bacarıqlara yiyələnməsi üçün peşə fəaliyyətinin ümumi əsasları üzrə ilkin hazırlıq kursları təşkil olunur. Əməkdaşlar xidmətə altı aylıq staj müddəti ilə təyin edilirlər. Bu müddətdə stajçıların fəaliyyətinin istiqamətləndirilməsi və bu fəaliyyətə nəzarət olunması məqsədilə təcrübəli əməkdaşlar onlara kurator təyin edilir. Staj müddətinin sonunda kurator əməkdaşın xidmətdə fəaliyyətinin vəzifəli şəxs kimi davam etdirməsinin məqsədəuyğun olub-olmaması barədə rəhbərliyə müvafiq tövsiyə təqdim edir.

***- Vergilər Nazirliyinin kadr seçimində əsas hədəf auditoriyası kimlərdir?***

- İlk növbədə, gənclərin potensialından və yeniliklərə daha meyilli olmalarından faydalanmaq nəzərdə tutulur. Gənc və potensiallı kadrların xidmətə cəlb edilməsi məqsədilə nazirlikdə gənclərlə müvafiq iş aparılır. Bu il aprelin 3-də «Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Azərbaycan Respublikasının Təhsil Nazirliyi arasında Əməkdaşlıq Memorandumu» imzalanıb. Memorandumun əsas müddəalarını vergilər və vergitutma sahələri üzrə təhsil alanların bilik və bacarıqlarının artırılması, təlim-tədris və peşə (kadr) hazırlığı sahələri üzrə qarşılıqlı əməkdaşlıq təşkil edir. Aprelin 26-da Vergilər Nazirliyinin əməkdaşları SABAH qrupunun bu il məzun olacaq tələbələri ilə görüş keçiriblər. Bundan başqa, nazirliyin nümayəndələri il ərzində ölkədə keçirilən müxtəlif əmək yarmarkalarında və sərgilərdə iştirak edirlər. Həmin tədbirlərdə dövlət vergi orqanlarına işə qəbul qaydaları və prosesi barədə iştirakçılara ətraflı məlumat verilir.

# Düzgün uçot dövlətin iqtisadi yüksəlişinə xidmət deməkdir



Uçot və nəzarət bütün zamanlarda iqtisadiyyatın ən populyar mövzularından olub. Rusiya Federasiyasının Maliyyə Universitetinin Risklərin təhlili və iqtisadiyyatın təhlükəsizliyi fakültəsinin dekanı, professor Vladimir Avdiyski ilə söhbətimizin başlıca predmeti də bu mövzu ilə bağlıdır.

***- Vladimir İvanoviç, Şamaxıda Azərbaycan Vergilər Nazirliyinin, Sahibkarlar Konfederasiyasının və Auditorlar Palatasının birlikdə keçirdiyi Mühasiblər Forumunda Siz də iştirak etmisiniz. Forumda ən çox müzakirə edilən məsələlərdən biri uçot və nəzarət ilə bağlı idi. Uçot və nəzarəti aktuallaşdıran başlıca amil nədir? Bunun idarəetmədə rolunu nədə görürsünüz?***

- Forum uçot və hesabatın normal funksiyalı iqtisadiyyatda əhəmiyyəti nə dərəcədə böyük olduğunu çox aydın göstərdi. Bu cür tədbirlərdə dövlət sahibkara öz fəaliyyətinin hesabatını saflaşdırmaq, düzgün aparmaq üçün təkliflər verir, imkan yaradır. Çünki dövlət müəssisələrin stabil iqtisadi şəraitdə çalışmasının tərəfdarıdır. Onlar əsas vergi ödəyiciləridir və bütünlükdə dövlətin iqtisadi cəhətdən güclənməsinin, iqtisadi proseslərin sabitliyinin qarantıdırlar.

Rusiya Federasiyasında da dövlətlə biznesin dialoqunu yaradan belə forumlar tez-tez keçirilir. Bu tədbirlər həm əhalinin, həm də iş adamlarının iqtisadi və maliyyə savadlılığını artırmaq baxımından böyük əhəmiyyət daşıyır.

Suala iş adamının nöqteyi-nəzərindən yanaşsaq, iş adamının düzgün hesabata marağı nədədir? Hər bir müəssisə maliyyə gəliri əldə etmək üçün iqtisadi stabilliyə can atır, dövlətin iqtisadi konsepsiyasından xəbərdar olmaq istəyir.

Forumda bizə real vəziyyət göstərdilər, ən əsası da mövcud problemləri ortaya qoyub müzakirə etdilər.

***- Düzgün aparılmayan maliyyə uçotu ölkə iqtisadiyyatına necə təsir edir?***

- Hər bir investor öz vəsaitini müəssisənin mənfəətlə işləməsindən əmin olduqdan sonra bu sahəyə yatırmağa qərar verdiyi üçün həmin müəssisənin maliyyə hesabatı da investor üçün aydın və anlaşılan olmalıdır. Buna görə də uçotu bir çox hallarda «biznesin dili» də adlandırırlar. Biz istəsək də, istəməsək də, hər bir ölkədə, dövlətdə, hətta ən inkişaf etmiş dövlətlərdə belə kölgə iqtisadiyyatı var, çox sürətlə inkişaf edir, var gücü ilə iqtisadi təhlükəsizliyi bürüyür.

Kölgə iqtisadiyyatı nədir? Bunu qeyri- rəsmi iqtisadiyyat da adlandırırlar. Bu, iqtisadiyyatın cəmiyyət və dövlətdən gizlədilən hissəsidir, dövlət nəzarətindən və uçotundan kənarda qalır. Beləliklə, maliyyə uçotunun müşahidə olunmayan, rəsmi qeydiyyata düşməyən hissəsini əhatə edir.

Ölkə iqtisadiyyatı özündə həm də qeyri-leqal, kriminal və qanunla qadağan edilən iqtisadi sahələri əhatə edir (lakin onlarla məhdudlaşmır).

Kölgə iqtisadiyyatı vergidən yayınmalara, haqsız rəqabətə, heç kimin qarşısında məsuliyyət daşımaması üzündən keyfiyyətsiz məhsul və xidmətə, iş yerlərində təhlükəsizlik qaydalarının pozulmasına şərait yaradır. Kölgə iqtisadiyyatına əlavə ödəmələr, qanunsuz yoxlamalar və süni maneələr də zəmin yarada bilir.

Kölgə iqtisadiyyatı inkişaf etməkdə olan ölkələrin vətəndaşlarının qanundan və ictimai qaydalardan kənar qurduqları qarşılıqlı iqtisadi münasibətlərdir. Bu sahibkarlıq fəaliyyətinin gəlirləri vergiyə cəlb olunmur (vergidən yayınır).

Beləliklə, dövlətin maliyyə nəzarətindən çıxmış resurslar peyda olur ki, bu, uçotun pozulması, hesabatın düzgün göstərilməməsi, müəssisənin uçot siyasətinin doğru qurulmaması hallarında baş verir.

Vicdanlı iş adamı külli miqdarda pullar hesabına iş qurur, istehsalını genişləndirir, məhsulun çeşidlərini artırır. Düzgün aparılmayan uçot onun əməyini itirir. Rəqabət tarazlığı pozulur. Bütün dünya ölkələri bu vəziyyətlə mübarizə aparırlar. Hamının qəbul etdiyi bir həqiqət var ki, bu mübarizənin yeganə yolu şəffaf mühasibatdan və təmiz hesabatdan keçir.

***- Mühasibat uçotunun və hesabatların şəffaf aparılması dedikdə, hansı səviyyə müəyyənləşdirilməlidir?***

- Bu sual həm çətindir, həm asan... İş ondadır ki, sovet dövründə dövlətin idarə olunmasında bir komanda forması var idi. Maddi dəyərlərin hərəkətliliyi və bu kimi məsələlər ilə dövlət birbaşa xüsusi sərəncamlar əsasında məşğul olurdu. Bu zaman müsbət olan o idi ki, mühasibat uçotu ilə bağlı bütün maddi dəyərlərin, gəlir-çıxarların, balans xərclərinin hesablandığı konkret bir sistem mövcud idi. Əlbəttə ki, o dövr üçün nəzərdə tutulmuş qanunlar sistemi kapitalizm nəzərə alınmadan yaradılmışdı. Onlarda gəlir götürülməsi formulu öz əksini tapmamışdı. Mühasibat vergi və mühasibat uçotuna bölünməmişdi. Bu gün hesabatların hər biri bizdən ayrıca yanaşma tələb edir.

Postsovet dövrünün mühasibat uçotu dəqiq prinsiplər əsasında qurulmuşdu. Hər bir sənaye sahəsinin özünə görə uçot, hesabat prinsipləri var idi. Rusiyada indi də bu sistem qəbulediləndir və mühasibat uçotunun inkişafına xidmət edir.

Hər sahəyə ayrıca yanaşılmalıdır. Sənayedə köhnə uçot prinsipi mütləq tətbiq olunur. Mühasibat uçotu milli xüsusiyyətlər nəzərə alınaraq aparılmalıdır.

***- Beynəlxalq standartlar bu sahədə hansı imkanları verir?***

- Amerika, Fransa kimi ölkələrin özlərinə məxsus uçot sistemləri var. Beynəlxalq standartlar uçotun sadələşdirilmiş variantını təqdim edir. Orda sadəcə bu prinsip var ki, qiymətlər vicdanla təyin olunur.

Beynəlxalq standartları dünya birliyində daha effektli, hamıya əlçatan etmək üçün hələ çox iş görülməlidir. Müasir iqtisadi əlaqələr sistemi mürəkkəb xarakterə malik olub, hər bir müəssisə və şirkətdən beynəlxalq kapital bazarına çıxış, onların sərəncamlarında olan təbii, əmək və maliyyə resurslarından səmərəli istifadə, yüksək bazar rəqabəti şəraitində fasiləsiz fəaliyyət və çeviklik tələb edir. Bu problemin həlli ən əvvəl müəssisə və şirkətin idarə olunması üzrə yekun qərarların düzgün verilməsinin ön plana çəkilməsi, maliyyə hesabatlarının göstəricilərinin beynəlxalq standartlara və mühasibat uçotu prinsiplərinə uyğun formalaşdırılması vasitəsilə mümkündür.

Mühasibat uçotu haqqında qanunvericilik bazasının möhkəmləndirilməsində də əsas məqsəd uçot sisteminin dünya uçot sisteminə uyğun qurulmasıdır.

Uçotun beynəlxalq standartlara uyğun qurulması ona görə lazımdır ki, istənilən xarici biznes ortağı, xarici müəssisə bu uçotu anlaya bilsin.

***- Maliyyə-təsərrüfat uçotu sahəsindəki uğurların müasir texnologiyalarla əlaqəsini necə görürsünüz?***

- Bu gün heç bir sahədə texnologiyasız keçinmək mümkün deyil. Həm hüquqi, həm iqtisadi nöqteyi-nəzərdən aparılan bütün əməliyyat və prosesləri indi kağız daşıyıcılarla idarə etmək mümkün deyil. Bunun üçün mütləq rəqəmsal uçot və təhlil lazımdır. Artıq buna inanmalıyıq ki, gələcəkdə mühasiblər ordusu ləğv ediləcək və bu sahədə hər şey, bütün sistem avtomatlaşdırılacaq.

***- Kölgə iqtisadiyyatının leqallaşdırılması mümkündürmü, bunun üçün hansı addımların atılmasını məqsədəuyğun hesab edirsiniz?***

- Məsələ bundadır ki, qərarları təsərrüfat fəaliyyətinin təhlili nəticəsində vermək mümkündür. Kölgə iqtisadiyyatı ümumi iqtisadiyyatın bir hissəsini təşkil edir. Bu dövlətin fiskal nəzarətindən kənarda qalan hissəsidir. Onun leqallaşdırılması üçün ilk növbədə rəqəmsal texnologiyalardan istifadə olunmalı, dəqiq uçot və nəzarət sistemi yaradılmalıdır. Bizim hamımızın borcu rəqəmsal texnologiyalardan, uçot, təhlil, auditdən kompleks şəkildə istifadə etməklə gizlədilmiş hissəni yenidən iqtisadiyyata əlavə etmək, fəaliyyətin mənzərəsini aydınlaşdırmaqdır. Bu çox vacib bir prosesdir.

***- Daxili auditin müəssisənin fəaliyyətində rolu nədən ibarətdir?***

- Audit - əmtəə istehsalı və satışı, xidmət göstərilməsi və iş görülməsi ilə məşğul olan təsərrüfat subyektlərində mühasibat uçotunun dəqiq və dürüst aparılmasının, mühasibat və maliyyə hesabatlarının müstəqil yoxlanılmasıdır. Auditin əsasını dövlətin, müəssisənin müdiriyyətinin və sahiblərinin, əmanətçilərin, səhmdarların qarşılıqlı marağı təşkil edir.

Bu baxımdan daxili nəzarət çox vacibdir. Bu, idarəetmə nəzarətinin ayrılmaz və mühüm tərkib hissəsidir. Daxili auditə tələbat ondan irəli gəlir ki, rəhbərliyin yuxarı pilləsi təşkilatın və aşağı idarəetmə sturukturlarının fəaliyyətinə gündəlik nəzarətlə məşğul olmur. Daxili audit bu fəaliyyət barədə informasiya verir və menecerlərin hesabatlarının düzgünlüyünü təsdiqləyir. Daxili audit başlıca olaraq ehtiyatların itkisinin qarşısını almaq və müəssisə daxilində zəruri dəyişikliklər aparmaq üçün lazımdır.

> “Kölgə iqtisadiyyatı vergidən yayınmalara, haqsız rəqabətə, heç kimin qarşısında məsuliyyət daşımaması üzündən keyfiyyətsiz məhsul və xidmətə, iş yerlərində təhlükəsizlik qaydalarının pozulmasına şərait yaradır

***Müsahibəni hazırladı:***
**Fəxriyyə İKRAMQIZI**

# İdxal-ixrac əməliyyatlarına nəzarət sistemi təkmilləşdirilir

## Vergilər Nazirliyi Dövlət Gömrük Komitəsi ilə birgə ixracın həcminin artırılması istiqamətində addımlar atacaq

Prezident İlham Əliyevin aprelin 20-də imzaladığı «İdxal-ixrac əməliyyatlarına nəzarət sisteminin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında» sərəncama əsasən, bir sıra idxal-ixrac əməliyyatları üzrə Vergilər Nazirliyi və Dövlət Gömrük Komitəsi tərəfindən birgə nəzarət mexanizminin tətbiqi nəzərdə tutulub. Sənəddə qeyd edilib ki, maliyyə nəzarəti sahəsində uçotun şəffaflaşdırılması, büdcə yığımlarının artırılması, qeyri-neft məhsullarının ixracı üzrə prosedurların sadələşdirilməsi, ixracın həcminin artırılması və bu istiqamətdə dövlətin fiskal siyasətini həyata keçirən orqanların fəaliyyətinin səmərəli şəkildə əlaqələndirilməsi məqsədilə bir sıra idxal-ixrac əməliyyatları üzrə Vergilər Nazirliyi və Dövlət Gömrük Komitəsi tərəfindən birgə nəzarət mexanizminin tətbiqi məqsədəuyğundur. Bu məqsədlə Vergilər, Maliyyə, İqtisadiyyat nazirliklərinə və Dövlət Gömrük Komitəsinə idxal-ixrac əməliyyatları üzrə birgə nəzarətlə əhatə olunacaq prosedurların siyahısına və mexanizminə dair təkliflərin hazırlanması tapşırılıb.

Bu tapşırıqdan irəli gələrək aprelin 28-də Vergilər Nazirliyi və Dövlət Gömrük Komitəsi arasında «Üçüncü şəxslər üçün mal idxal edən şəxslərin fəaliyyətinə nəzarət edilməsi haqqında» razılaşma protokolu imzalanıb.

İqtisadçı Oqtay Məmmədovun sözlərinə görə, Azərbaycanda həyata keçirilən iqtisadi siyasətin və islahatların hədəflərindən biri gömrükdən və vergidən yayınma hallarının aradan qaldırılması və büdcə daxilolmalarının tam həcmdə, vaxtında yığılmasını təmin etməkdir. Hər iki sahədə vergi-gömrük yığımlarında nəzarət sisteminin təkmilləşdirilməsi və iqtisadi münasibətlərin şəffaflaşdırılması ilə bağlı məqsədyönlü tədbirlər həyata keçirilir. Bu siyasət çərçivəsində üçüncü şəxslər üçün mal idxal edən şəxslərin idxal əməliyyatlarına nəzarətin vergi öhdəliklərinə əməl edilərək aparılması zəruridir. Bu məqsədlə idxal olunmuş malların faktiki sahibləri barədə məlumatların əldə edilməsi, o cümlədən vergitutma obyektərinin uçotunun şəffaflaşdırılması və vergi ödəyicilərinin gəlir və xərclərinin uçotunun təmin edilməsi istiqamətində işlər davam etdirilməli, yeni nəzarət mexanizmləri tətbiq olunmalıdır. Bəzi hallarda vergi və gömrük qanunvericiliyinin tələblərinin pozulduğu, dövlət büdcəsinə vergilərin vaxtında və düzgün ödənilməsi təmin edilmədiyi nəzərə alınmaqla idxal-ixrac əməliyyatlarına nəzarət sisteminin təkmilləşdirilməsinə ehtiyac var. Görülən tədbirlər həmin sahədə işlərin güclü koordinasiyasının və büdcə yığımlarının səmərəli təşkilinin təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bu siyasətin həyata keçirilməsi gömrük və vergi orqanları arasındakı əlaqələrin səmərəliliyinin artmasına və sahibkarlığın inkişafına müsbət təsir göstərəcək.

> «İxrac potensialının səmərəli istifadə olunmasının əsas məqsədi budur ki, ölkə iqtisadiyyatı qeyri-neft məhsullarının ixracatından gələn gəlirlər üzərində köklənsin

İqtisadçı Pərviz Heydərov bildirib ki, son illər ölkənin ixrac potensialından tam səmərəli istifadə olunması üçün hökumət tərəfindən bir sıra addımlar atılıb, müvafiq sənədlər imzalanıb: «İxrac potensialının səmərəli istifadə olunmasının əsas məqsədi budur ki, ölkə iqtisadiyyatı qeyri-neft məhsullarının ixracatından gələn gəlirlər üzərində köklənsin. Makroiqtisadi dayanıqlılıq qeyri-neft məhsullarının ixracına əsaslansın. Bu, eyni zamanda idxal əməliyyatlarına da ciddi nəzarət olunması siyasətinin aparılmasını tələb edir. Elə məhsullar var ki, biz onu mütləq idxal etməliyik. Ancaq daxili bazar idxaldan asılı olmamalıdır».

İqtisadçı qeyd edib ki, idxal-ixrac əməliyyatlarına nəzarətin səmərəliliyində əsas prinsiplərdən biri prosedur qaydalarının olduqca sadə olmasıdır. Vaxt itkisi probleminin yaranmaması, eyni zamanda rüsum və vergilərin yığılması mexanizmlərində qiymət artımına yol verilməməsi diqqətdə saxlanılmalıdır.

Nəzərdə tutulan tədbirlərin icrası məqsədilə Vergilər Nazirliyi yanında İdxal-ixrac əməliyyatları üzrə nəzarət departamenti yaradılıb. Departamentin məqsədi maliyyə nəzarəti sahəsində uçotun şəffaflaşdırılması, büdcə yığımlarının artırılması, qeyri-neft məhsullarının ixracı prosedurlarının sadələşdirilməsi, ixracın həcminin artırılması və dövlətin fiskal siyasətini həyata keçirən orqanların fəaliyyətinə dəstək verilməsi, idxal-ixrac əməliyyatlarına nəzarət sisteminin təkmilləşdirilməsidir.

## ƏRAZİ VERGİ ORQANLARINDA

- Aprelin 30-da Balakən rayonu Xalatala kənd tam orta məktəbində 13 saylı Ərazi Vergilər İdarəsinin (ƏVİ) əməkdaşları ilə rayon təhsil şöbəsinin nümayəndələri, «Vergi dostları» layihəsinin şəbəkə üzvləri, eləcə də kənddə fəaliyyət göstərən sahibkarların təmsilçilərinin görüşü keçirilmişdir. Balakən Təhsil şöbəsinin metodisti Mahi Əliyeva «Vergi dostları» şəbəkəsinin üzvləri olan müəllimlərin apardığı maarifləndirmə tədbirləri haqqında geniş məlumat vermişdir. Ölkədə həyata keçirilən vergi siyasətinə uyğun olaraq gənc nəslin, o cümlədən orta və ali təhsil müəssisələrinin şagird və tələbələrinin vergilər haqqında bilik və anlayışlarının artırılması, vergi mədəniyyətinin yüksəldilməsi istiqamətində Vergilər Nazirliyi ilə Təhsil Nazirliyinin səmərəli əməkdaşlığı qeyd edilmişdir. Tədbirdə şagirdlər qədim vergi növlərindən bəhs edən səhnəciklər təqdim etmişlər.
- Mayın 2-də 3 saylı ƏVİ-nin əməkdaşları Quba rayonu ərazisində fəaliyyət göstərən bələdiyyə təmsilçiləri ilə görüş keçirmişlər. Tədbirdə vergi və ödənişlərin düzgün hesablanması, Vergi Məcəlləsinə edilmiş son əlavə və dəyişikliklər, «Nağdsız hesablaşmalar haqqında» Qanunun tətbiqi, «Yerli (bələdiyyə) vergilərin ödəyiciləri olan fiziki şəxslərin və sahibkarlıq fəaliyyəti subyektlərinin uçota alınması» və «Yerli (bələdiyyə) vergi və ödənişlərin hesablanması, ödənilməsi və uçotu» ilə bağlı metodiki vəsaitlərin tətbiqi kimi məsələlər barədə müzakirələr aparılmışdır. Görüş zamanı diqqət bələdiyyələrin vergi yığımı ilə bağlı rastlaşdıqları məsələlərin həllinə yönəldilmişdir.
- Mayın 4-də 3 saylı ƏVİ-nin əməkdaşları tərəfindən Şabran şəhərindəki 5 saylı tam orta məktəbin şagirdləri ilə görüş keçirilmişdir. Tədbirdə «İqtisadiyyat nədir», «Yeraltı və yerüstü sərvətlər», «Fiziki və hüquqi şəxslər», «Gəlir və mənfəət vergiləri», eləcə də 1 İyun – Uşaqları Beynəlxalq Müdafiə Gününə həsr olunmuş «Vergilər uşaqların gözü ilə» rəsm və inşa müsabiqəsinin keçirilməsi qaydaları barədə məlumat verilmişdir.
- Mayın 4-də 6 saylı ƏVİ-nin əməkdaşları Lənkəran şəhərində «Vergi dostları» şəbəkəsinin üzvləri ilə görüş keçirmişdir. Görüş zamanı «vergi dostları»nın ödəyicilər arasında aparmalı olduqları məlumatlandırma və maarifləndirmə işlərinin mövzuları müzakirə edilmişdir. Şəbəkə üzvlərinə Vergilər Nazirliyi tərəfindən təsdiq edilmiş son tədbirlər planları, elektron xidmətlər, onlayn ödəmə, bəyannamələrin vaxtında təqdim edilməsi, vergi öhdəliklərinin yerinə yetirilməsi və digər məsələlər ətraflı şəkildə izah edilmiş, tədbir iştirakçılarının sualları cavablandırılmışdır.

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

# Ödəmə mənbəyində tutulan vergilər

***Rezident müəssisənin ona göstərilən xidmətlərlə bağlı Andorrada təsis edilmiş şirkətə etdiyi ödənişlər ödəmə mənbəyində hansı vergilərə cəlb olunur?***

Vergi Məcəlləsinin (VM) 13.2.16.14-1-ci maddəsinə əsasən, bu Məcəllənin 128-ci maddəsində nəzərdə tutulan güzəştli vergi tutulan ölkələrdə təsis edilmiş (qeydiyyatdan keçmiş) subyektlərə rezidentlərin və qeyri-rezidentlərin Azərbaycan Respublikasındakı daimi nümayəndəlikləri tərəfindən birbaşa və ya dolayısı ilə edilən ödənişlər Azərbaycan mənbəyindən gəlirlərə aid edilir.

Qeyri-rezidentin VM-in 13.2.16-cı maddəsi ilə Azərbaycan mənbəyindən əldə olunan gəliri kimi müəyyən edilən və qeyri-rezidentin Azərbaycan Respublikasının ərazisindəki daimi nümayəndəliyinə aid olmayan işlərin görülməsindən və ya xidmətlərin göstərilməsindən əldə edilən digər gəlirlərindən ödəmə mənbəyində xərclər çıxılmadan 10 faiz dərəcə ilə vergi tutulur (VM, maddə 125.1.5).

VM-in 13.2.16.14-1-ci maddəsində göstərilən ödəmələr ödəmə mənbəyində 10 faiz dərəcəsi ilə vergiyə cəlb olunur (VM, maddə 125.1.9).

Güzəştli vergi tutulan xarici ölkə dedikdə, vergi dərəcəsi bu Məcəllədə müəyyən edilmiş dərəcədən 2 dəfə və ya daha çox aşağı olan və maliyyə məlumatını, yaxud əmlakın faktiki sahibi və ya gəlir (mənfəət) götürən barədə sirri qorumaq imkanı verilmiş şirkətlər haqqında məlumatın məxfiliyinə dair qanunun mövcud olduğu ölkə başa düşülür (VM, maddə 128.2).

Güzəştli vergi tutulan ölkələrin və ərazilərin siyahısı Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 11 iyul tarixli 1505 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.

**Qeyd olunanlara əsasən:**

Adıçəkilən fərmanla güzəştli vergi tutulan ölkə kimi müəyyən edilmiş Andorrada təsis edilmiş şirkət ilə bağlanmış müqavilə əsasında rezident müəssisə tərəfindən ona aparılan ödənişlərdən VM-in 125.1.5-ci maddəsinə əsasən, ödəmə mənbəyində 10 faiz dərəcə ilə vergi tutulmaqla yanaşı, VM-in 125.1.9-cu maddəsinə uyğun olaraq 10 faiz dərəcə ilə vergi hesablanıb dövlət büdcəsinə ödənilməlidir.

Suallarınızı redaksiyamızın ünvanına:
AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az**
elektron poçt ünvanına göndərə bilərsiniz

# Məşğulluq dövlətin sosial yükünün azalmasında başlıca rol oynayır

Azərbaycan Prezidentinin hökumət qarşısında qoyduğu vəzifələrin əsas prioritetlərindən biri işsizliyin aradan qaldırılmasıdır. Məşğulluğun təmin edilməsi bir tərəfdən insanların gündəlik dolanışığının təmin olunmasına, rifah halının yüksəldilməsinə xidmət edirsə, digər tərəfdən də dövlətin sosial yükünün azalmasında başlıca rol oynayır. Dövlət yeni iş yerlərinin açılmasını stimullaşdırmaqla davamlı sosial-iqtisadi inkişafın sürətləndirilməsinə əsas yaradır. Ötən il Azərbaycanda 177 mini daimi olmaqla 221 min yeni iş yeri açılmışdır. Bu ilin birinci rübündə isə 34 min yeni iş yeri yaradılmışdır ki, onlardan 31 mini daimidir. 2018-ci il aprelin 1-i vəziyyətinə, ölkəmizdə iqtisadi fəal əhalinin sayı 5 milyon 75 min 900 nəfər olub ki, onlardanda 4 milyon 823 min 400 nəfərini məşğul əhali təşkil edir.

Hazırda ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən təxminən 6,2 faiz artaraq 525 manat olmuşdur. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, eləcə də tikinti sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksəkdir.

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2018-ci il martın 1-i vəziyyətinə ölkədə muzdla çalışan işçilərin sayı 1 milyon 516 min 500 nəfər olmuşdur. Onlardan 887,9 mini iqtisadiyyatın dövlət sektorunda, 628,6 mini isə qeyri-dövlət sektorunda fəaliyyət göstərir. Muzdla işləyənlərin 21,9 faizi təhsil, 19,2 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri, 13,2 faizi sənaye, 8,6 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,2 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 6 faizi tikinti, 4,7 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,4 faizi peşə, elmi və texniki fəaliyyət, 3,2 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,6 faizi maliyyə və sığorta fəaliyyəti, 11 faizi isə iqtisadiyyatın digər sahələrində çalışırlar.



Dövlət Statistika Komitəsinin məlumatları əsasında

Muzdla çalışan işçilərin orta aylıq nominal əmək haqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 2,2 faiz artaraq 510,8 manat olmuşdur. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, tikinti, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, ötən il aztəminatlı ailələrin aktiv məşğulluq proqramlarına cəlb olunmasını nəzərdə tutan özüməşğulluq layihəsi çərçivəsində 76 şəhər və rayon üzrə 1172 ailə aktivlərlə təmin edilərək kiçik ailə təsərrüfatları yaradılıb. Eyni zamanda, həmin təsərrüfatlar barədə məlumatların «ABAD» mərkəzlərinə ötürülməsi barədə razılığa gəlinib ki, bu da onların məhsullarının satışında ciddi rol oynayacaq. Hazırda ailə təsərrüfatlarının mütəmadi monitorinqi aparılmaqdadır.

Müvafiq normativ hüquqi baza yaradılmaqla yeni fəaliyyətə başlayan işsizlikdən sığorta sistemi cari ildə özüməşğulluq proqramlarında vətəndaşların iştirak imkanlarını 6 dəfəyə yaxın artıracağı proqnozlaşdırılır. Bu tədbirlər üçün İşsizlikdən Sığorta Fondunun büdcəsində 35,8 milyon manat vəsait nəzərdə tutulub.

Həyata keçirilən aktiv məşğulluq tədbirlərindən biri də işaxtaran və işsiz vətəndaşların münasib işlərlə təminatında mühüm rol oynayan əmək yarmarkalarıdır. Bu il ölkəmizin 56 rayon və şəhərində əmək yarmarkalarının keçirilməsi planlaşdırılır. İşaxtaran və işsiz vətəndaşların münasib işlə təmin olunması məqsədinə yönəldilən həmin aktiv məşğulluq tədbirlərinin təşkili ilə əlaqədar işəgötürənlərlə əməkdaşlıq şəraitində müvafiq hazırlıq işləri aparılır. Yarmarkalar zamanı müvafiq rayon və ya şəhər üzrə idarə, müəssisə və təşkilatlarda olan boş (vakant) iş yerləri işaxtaran və işsiz vətəndaşlara təklif olunacaq, onlara seçdikləri və peşə bacarıqlarına, əmək vərdişlərinə uyğun vakant iş yerlərinə göndərişlər veriləcək. Bununla yanaşı, peşə hazırlığı və əlavə təhsil kurslarına, ödənişli ictimai işlərə cəlb olunmaq istəyənlərin qeydiyyatı da aparılacaq.

Dövlət Məşğulluq Xidmətinin Əmək Birjalarının fəaliyyət göstərdiyi şəhərlərdə keçirilən əmək yarmarkalarında isə müvəqqəti xarakterli işlərlə təmin olunmaq istəyənlər üçün həmin birjaların iştirakı təmin ediləcək. Bu il ölkəmizin təxminən 10 ali təhsil müəssisəsində tələbə və məzunlar üçün «Karyerada ilk addım» devizi altında aktiv məşğulluq tədbirlərinin təşkili nəzərdə tutulmuşdur.

Xatırladaq ki, ötən il respublikamızın rayon və şəhərlərində keçirilən əmək yarmarkaları zamanı vakant iş yerlərinə göndəriş verilənlərdən 90 faizə qədəri işlə təmin olunmuşdu.

**RƏŞAD**

# Əmək hüququnu pozanlara qarşı mübarizə sərtləşdirilir

İşəgötürənlər tərəfindən işçi qəbulu zamanı əmək müqaviləsinin bağlanmaması və bu məsələdə gizli razılaşmaların olması həm vətəndaşların hüquqlarının kobud şəkildə pozulması, həm də gəlir vergisinin və sosial ödənişlərin yerinə yetirilməməsi ilə nəticələnir. İqtisadiyyatın müxtəlif sektorlarında çalışanların bir qisminin qeyri-qanuni işləməsi, müəssisələrdə işçilərin adının olub, özünün olmaması və s. bu kimi neqativ hallar ölkənin sosial vəziyyətinin real əks etdirilməməsinə gətirib çıxarır.

Hökumət belə neqativ halların aradan qaldırılması məqsədilə daha etibarlı hüquqi bazanın formalaşdırılması üzərində iş aparır. Əmək müqaviləsi olmadan işçi qüvvəsindən istifadə etmək imkanları tamamilə məhdudlaşdırılacaq. Xüsusilə tikinti sahəsində qeyri-rəsmi məşğulluğa zəmin yaradan sifarişçi-podratçı-subpodratçı münasibətləri təkmilləşdiriləcək, bunlar arasında bağlanan müqavilələrdə tikintinin ümumi dəyəri, əməkhaqqı fondu, əmək məsrəfi, o cümlədən vergi və sosial sığorta ödəmələri ilə bağlı göstəricilər məcburi xarakter alacaq. Bütün bunlardan sonra tikintidə, eləcə də digər sektorlarda işçilərin sayını gizlətmək həm qeyri-mümkün, həm də tamamilə mənasız olacaq.

Hazırda əmək münasibətlərinin və əmək qanunvericiliyinin pozulduğu sahələrdən biri və bəlkə də birincisi tikinti sektorudur. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin («ASAN xidmət») sədri Ülvi Mehdiyevin sözlərinə görə, Əmək Münasibətlərinin Monitorinqi Mərkəzi tərəfindən Bakıda tikilməkdə olan çoxmənzilli yaşayış binalarında qeyri-rəsmi əmək münasibətlərinin qarşısının alınması məqsədilə 54 səyyar monitorinq keçirilib. Bu monitorinqlər 100-dən çox tikinti şirkətini əhatə edib və nəticədə Bakıda tikilməkdə olan yaşayış binalarında çalışanların 30 faizinin əmək müqaviləsinin olmadığı aşkarlanıb. Qanun pozuntuları ilə əlaqədar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 24, Baş Prokurorluğa isə 23 material göndərilib.




> Hazırda əmək münasibətlərinin və əmək qanunvericiliyinin pozulduğu sahələrdən biri və bəlkə də birincisi tikinti sektorudur

Dövlət Agentliyinin sədri bildirib ki, bu günə kimi Bakıda tikilən yaşayış binalarında çalışan 40 min nəfərə əmək müqaviləsi imzalatdırılıb: «Bağlanan əmək müqavilələrinin hesabına dövlət büdcəsinə 12 milyon manat vəsaitin ödənilməsi təmin edilib. Bu məsələ ilə bağlı elektron sistem yaradılıb. Sistem Fövqəladə Hallar, Vergilər, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin informasiya sistemlərinə inteqrasiya olunub. Bakı şəhərində nə qədər tikilməkdə olan çoxmənzilli yaşayış binası var, o binaların podratçıları, sifarişçiləri hansı şirkətlərdir və o podratçıların nə qədər işçisi var - bütün bunların hamısı bizim sistemdə görünür. Sistem vasitəsilə qeyri-leqal əmək fəaliyyətinə dair şübhəli hala rast gəlindikdə dərhal səyyar monitorinq keçirilir və müvafiq qərar qəbul edilir».

Mühüm yeniliklərdən biri də yeni yaradılan iş yerlərinə dair məlumatların yalnız əmək müqaviləsi bağlandığı halda Dövlət Statistika Komitəsi tərəfindən qəbul olunacağıdır. Bu, xüsusilə də iş yerlərinin yaradılması kontekstində qeyri-rəsmi məşğulluğun qarşısını almağa yönəldilmiş vacib tədbirlərdən hesab olunur. Xidmət və ticarət sahələrində qeyri-rəsmi məşğulluqla mübarizədə böyük təcrübə toplamış ölkələrdə olduğu kimi, işçi sayı normativləri deyilən anlayışlardan istifadə olunacaq. Misal üçün, 1000 $m^2$ sahəsi olan iaşə müəssisəsində 3-5 nəfərin işləməsi real hesab olunmayacaq: məntiqə görə bir iaşə obyektinin iş həcmi azdırsa, mənfəət baxımından faydalı deyil.

Tikinti sektorunda əmək müqavilələlərinin bağlanmasına qarşı biganə münasibət bədbəxt hadisələr zamanı kompensasiyaların ödənilməsində də ciddi problemlərin ortaya çıxmasına səbəb olur. Təkcə ötən il 36 bədbəxt hadisə baş verib (qrup halında 1 hadisə qeydə alınıb) və bu hadisələr zamanı ölənlərin sayı 17, xəsarət alanların sayı isə 24 nəfər olub. Tikinti sektoru da daxil olmaqla, bəzi özəl sahələrdə işçilər əmək müqaviləsi və icbari sığorta olmadan çalışdırılırlar.

**R. SADIQOV**

## Əmək müqaviləsi bağlandığı halda işçinin əldə etdiyi hüquqlar:

**Vaxtında əməkhaqqı almaq hüququ**

İşçi işəgötürənlə əmək müqaviləsini rəsmiləşdirməklə qanunvericiliklə müəyyən edilmiş minimum məbləğdən aşağı olmayan əməkhaqqını vaxtında almaq hüququ əldə edir.

**8 saatlıq iş hüququ**

İşçi işəgötürənlə əmək müqaviləsini rəsmiləşdirməklə qanunvericiliklə müəyyən olunmuş iş vaxtında çalışmaq hüququ əldə edir. Bununla belə, işçi müvafiq peşələr (vəzifələr), istehsalatlar üzrə iş yerlərində qanunvericiliklə müəyyən olunmuş qısaldılmış iş vaxtında çalışmaq və qanunvericiliklə müəyyən olunmuş həftələrarası istirahət günlərindən istifadə etmək hüququna malikdir. Gündəlik normal iş vaxtının müddəti 8 saat, həftəlik normal iş vaxtının müddəti isə 40 saatdır. Lakin işçi işəgötürənin əmri (sərəncamı, qərarı) və işçinin razılığı ilə müəyyən olunmuş iş günü vaxtından artıq müddət ərzində əmək funksiyasını yerinə yetirməyə cəlb edilə bilər ki, bu vaxt da o həmin artıq iş saatlarına görə əlavə əmək haqqı almaq hüququ əldə edir.

**Əmək məzuniyyətindən istifadə hüququ**

Əmək müqaviləsi ilə işləyən işçilər ödənişli məzuniyyət, yəni 21 təqvim günündən az olmayan əsas əmək məzuniyyəti, iş stajına görə əlavə məzuniyyət, sosial məzuniyyət, təhsilini davam etdirmək və elmi yaradıcılıqla məşğul olmaq üçün verilən təhsil və yaradıcılıq məzuniyyəti, ödənişsiz məzuniyyət hüququna malikdirlər. Eyni zamanda əmək müqaviləsinə xitam verilməsi səbəbindən və əsasından asılı olmayaraq işçiyə işdən çıxan günədək hər hansı şərt və ya məhdudiyyət qoyulmadan istifadə etmədiyi bütün iş illərinin əsas məzuniyyətlərinə görə pul əvəzi ödənilməlidir.

**Peşə-əmək qabiliyyətinin itirilməsi hallarında icbari sığorta hüququ**

İş vaxtı işçi peşə əmək qabiliyyətini, sağlamlığını itirərsə, eləcə də işəgötürənin təqsirli hərəkətləri nəticəsində işçiyə maddi, ya da mənəvi ziyan dəyərsə, işəgötürən qanunvericiliyə müvafiq qaydada məsuliyyət daşıyır və işçiyə dəymiş zərərin əvəzini tam şəkildə ödəmək işəgötürənin vəzifəsidir.

**Xəstəlik və işdənçıxma müavinətinin tam həcmdə alınması hüququ**

İşçi xəstələndikdə və ya işdən çıxdıqda xəstəlik və işdənçıxma müavinətini tam həcmdə əldə etmək hüququ əldə edir.

**Gələcəkdə layiqli əmək pensiyası imkanı**

Əmək müqaviləsi ilə çalışan işçi fərdi pensiya hesabındakı yığımına uyğun olaraq gələcəkdə layiqli pensiya təminatı hüququ əldə edir.

**İpoteka və digər kredit almaq imkanı**

Banklar tərəfindən istehlak və ya ipoteka kreditlərinin verilməsi zamanı işçiyə veriləcək krediti qaytarmaq qabiliyyəti araşdırılarkən kredit istəyən şəxsin rəsmi qaydada təsdiqlənmiş gəlirləri nəzərə alınır və bu baxımdan da əmək münasibətlərini əmək müqaviləsi ilə rəsmiləşdirən şəxslərin istənilən krediti almaq imkanları daha genişdir. Bununla belə işçi mənzil şəraitinin, ailə üzvlərinin sosial-məişət şəraitinin yaxşılaşdırılması üçün işəgötürəndən müvafiq sosial yardımlar almaq imkanı da əldə edir.

**Məhkəmədə hüquqların müdafiəsi**

Əmək hüquqlarının müdafiəsi üçün məhkəməyə müraciət etmək və müdafiə olunmaq hüququna malikdir. Qeyd edilənlər nəzərə alınaraq işçi işəgötürənlə əmək müqaviləsi bağlamaqla və bunu işəgötürəndən tələb etməklə gələcəyini indidən düşünmüş olur.

# Şahmat turnirinə yekun vurulub

Azərbaycan Respublikası Vergilər Nazirliyinin təşkilatçılığı, Gənclər və İdman Nazirliyinin, eləcə də Azərbaycan Şahmat Federasiyasının dəstəyi ilə keçirilən vergi xidməti əməkdaşları arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-cü ildönümünə həsr olunmuş şahmat turniri başa çatıb.

Turnirin bağlanış mərasimində çıxış edən vergilər nazirinin müavini Sahib Ələkbərov qalibləri təbrik edərək, yarışın maraqlı rəqabət şəraitində keçdiyini qeyd edib, vergi sistemində çalışanların asudə vaxtlarında şahmatla məşğul olmalarını və əməkdaşların intellektual potensiallarının nümayiş etdirilməsi baxımından bu yarışın təşkilini müsbət dəyərləndirib.




Turnirin qalibi 12 saylı Ərazi Vergilər Departamentinin əməkdaşı Ayaz Məmmədov olub. Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin əməkdaşı Məzəddin Allahverdiyev 2-ci, 8 saylı Ərazi Vergilər İdarəsinin əməkdaşı Abbasov Ramil isə 3-cü yeri tutub.

Sonda qaliblərə diplomlar təqdim edilib.

## BİR CÜMLƏ - BİR XƏBƏR

Mənzil İnşaatı Dövlət Agentliyinin ilk layihəsi olan Yasamal Yaşayış Kompleksində mayın 7-dən güzəştli mənzillərin satışına başlanılıb.

Ölkəmizdə mükəmməl elektron kadastr uçotunun və torpaqlardan səmərəli istifadə edilməsi məqsədilə Peyk Nəzarət Sistemi qurulur.

Azərbaycan-İran-Rusiya arasında elektrik enerjisi dəhlizinin yaradılması müzakirə edilib.

Mayın 12-də İran İslam Respublikasının Astara şəhərində «Astara Terminalının «Şimal-Cənub» və «Cənub-Qərb» Beynəlxalq Nəqliyyat dəhlizlərinin inkişafındakı rolu» mövzusunda tədbir keçiriləcək.

Heydər Əliyev Beynəlxalq Aeroportu hava limanlarının auditi sahəsində ən nüfuzlu «Skytrax World Airport Awards»ın maksimal - «5 ulduz» statusuna layiq görülüb.

# Şəffaflıq və hesabatlılıq inkişafın əsas şərtlərindəndir

**«Bizim bütün maliyyə sistemimiz şəffaf olmalıdır. Bütün biznes strukturları şəffaf olmalıdır. Biznes strukturları başa düşməlidirlər ki, əgər onlar dünya iqtisadiyyatına inteqrasiya etmək istəyirlərsə, öz biznesini böyütmək və xarici bazarlara çıxmaq istəyirlərsə, onlar mütləq və mütləq dünya praktikasını tətbiq etməlidirlər».**

**İlham ƏLİYEV,**
***Azərbaycan Respublikasının Prezidenti***

Prezident İlham Əliyev aprelin 18-də Milli Məclisdə keçirilən andiçmə mərasimində qeyd edib ki, iqtisadi sahədə tam şəffaflıq təmin edilməli, bütün xoşagəlməz hallara son qoyulmalıdır. İqtisadi qurumlar dünyanın inkişaf etmiş ölkələrində olan müsbət təcrübəni tətbiq etməlidir. «Gələcək innovasiya, texnologiya, yaxşı idarəçilik, şəffaflıqdan ibarət olacaqdır» deyən dövlət başçısı hökumət orqanları ilə biznes sektoru qarşısında çox mühüm vəzifələr durduğunu qeyd edərək hər iki tərəfi fəaliyyətlərini bu prinsiplərə uyğunlaşdırmağa çağırıb.

«İqtisadi Resursların Öyrənilməsi» İctimai Birliyinin sədri Ruslan Atakişiyevin sözlərinə görə, Azərbaycanda həyata keçirilən iqtisadi siyasətin ən mühüm prioritetləri arasında hesabatlılıq və şəffaflıq prinsipinə xüsusi yer verilir. Dövlət-biznes münasibətlərinin yeni yanaşma əsasında qurulması şəffaflığın və hesabatlılığın artmasında mühüm rol oynayır. Hazırda yeni iqtisadi hədəflərə uyğun olaraq həm maliyyə nəzarətini həyata keçirən orqanların, həm də sahibkarlıq və ictimai sektorun fəaliyyətində şəffaflığın və hesabatlılığın artırılması ilə yanaşı, təsərrüfat subyektlərində maliyyə intizamının, əmək bazarına nəzarətin gücləndirilməsi, vergidən yayınma hallarına qarşı mübarizə tədbirlərinin daha da genişləndirilməsi əsas şərtlər kimi müəyyən edilib. Maliyyə-fiskal nəzarəti həyata keçirən dövlət orqanları bu istiqamətdə müxtəlif layihələr gerçəkləşdirir, elektron xidmət alətləri tətbiq edirlər. Özəl sektor üçün yeni hesabatvermə formaları, mütərəqqi idarəetmə metodları, prudensial nəzarət mexanizmləri və risk əsaslı nəzarətə keçidin müəyyən edilməsi üzrə tövsiyələr hazırlanır.

Maliyyə və audit üzrə mütəxəssis Tural Ağayev hesab edir ki, biznes sektorunun şəffaf fəaliyyətinin əsas göstəricisi maliyyə və vergi hesabatlarının dürüstlüyüdür. İqtisadi islahatların indiki mərhələsində audit, maliyyə və vergi nəzarəti sisteminin yenidən qurulması, optimallaşdırılması, təsirliliyinin artırılması üçün innovativ alətlərdən geniş istifadə edilməsi vacib şərtdir. Hazırda ölkədə peşəkar audit institutun fəaliyyətinə ehtiyac duyulur. Peşəkar audit maliyyə və vergi intizamının gücləndirilməsində, vəsaitlərin təyinatına uyğun və qənaətlə xərclənməsində aşkarlığı təmin edən əsas vasitələrdəndir. Maliyyə ekspertinin bildirdiyinə görə, şəffaflığın təmin olunmasında dürüst mühasibat və uçot sisteminin qurulması ilə yanaşı, nağdsız ödənişlərin genişləndirilməsi də mühüm əhəmiyyət kəsb edir. Nağdsiz ödəmələr biznes sektorunun fəaliyyətindəki şübhələri tamamilə aradan qaldırır, xüsusilə də vergi orqanlarının vergi ödəyicisinin maliyyə-təsərrüfat əməliyyatları haqqında düzgün məlumat əldə etməsinə imkan yaradır.

> Biznes sektorunun şəffaf fəaliyyətinin əsas göstəricisi maliyyə və vergi hesabatlarının dürüstlüyüdür

Şəffaflığın təmin edilməsi ilə bağlı tələblərin artması şəraitində mühasibat və vergi uçotu sahəsində yeni çağırışlar meydana çıxır. Vergilər Nazirliyi yeni islahatlar kursuna uyğun olaraq sahibkarlığın, xüsusilə də kiçik və orta biznesin inkişafı üçün daha əlverişli şəraitin yaradılması, vergi yükünün azaldılması, vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, vergi orqanları və sahibkarlıq subyektləri arasında qarşılıqlı etimadın formalaşdırılması, nağdsız əməliyyatların həcminin və vergi mühitinin cəlbediciliyinin artırılması yolu ilə iqtisadiyyata investisiya qoyuluşlarının təşviq edilməsi, ixracın stimullaşdırılması, dürüst və şəffaf uçotun qurulması istiqamətində işləri davam etdirir.

Vergi sahəsi üzrə mütəxəssis, «KPMG-Azərbaycan» audit şirkətinin vergi və hüquq departamentinin meneceri Qaya Əzimov hesab edir ki, hazırda vergi sistemində tətbiq olunan yeni yanaşmalar, xüsusilə də yoxlamaların optimallaşdırılması və vergi risklərinin idarə edilməsi sistemi kimi innovativ alətlərin tətbiqi ölkənin iqtisadi həyatına müsbət impulslar verir. Vergi sistemində geniş tətbiq olunan elektron qaimə faktura ( e-qaimə) vergidən yayınma hallarının qarşısının alınması və şəffaflığın təmin edilməsi baxımından ən yaxşı vasitələrdən biridir. Şəffaflığı təmin edən müasir innovativ metodlardan biri elektron audittdir. Vergi yoxlamalarının aparılmasında ən səmərəli vasitə hesab edilən e-audit vergi ödəyicisinin elektron formatda saxlanılan maliyyə məlumatlarına xüsusi proqram təminatı vasitəsilə birbaşa və ya məsafədən çıxış imkanı yaradır. E-audit vergi orqanı əməkdaşının vergi ödəyicisinin işinə müdaxiləsini aradan qaldırır, həm vergi orqanları, həm də vergi ödəyiciləri üçün vaxt sərfiyyatını dəfələrlə azaldır. Elektron audit sayəsində vergi orqanları vergidən yayınan vergi ödəyicilərini vaxtında aşkarlaya və müvafiq tədbirlər görə bilir, vergi intizamı artır, könüllü əməletmə dərəcəsinin yüksəlməsi və vergi inzibatçılığının cari xərclərinin azalması hesabına büdcə daxilolmalarında artım baş verir. Vergi orqanlarının apardığı təhlillərin nəticələrinə görə, e-auditin tətbiq edildiyi təsərrüfat subyektlərində könüllü əməletmə səviyyəsi 90%-dən yüksəkdir.

Bütün bunlara baxmayaraq vergi ödəyicilərinin mühasibat və uçot sistemlərinin təkmilləşdirilməsinə və elektronlaşdırılmasına ehtiyac var. Biznes sektorunda uçotun təkmilləşdirilməsi, informasiya texnologiyalarının genişmiqyaslı tətbiqi iqtisadiyyatımızın müasir səviyyəsində olduqca zəruridir.

**Elbrus CƏFƏRLİ**

# İslahatlar bəhrəsini verir

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi Azərbaycanda Amerika Ticarət Palatasının (Amcham) işgüzar naharında «Doing Business» hesabatı ilə bağlı aparılan islahatlara həsr olunmuş xüsusi nəşr təqdim edilib.

Bildirilib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan dərin və sistemli iqtisadi islahatların nəticələri bu ilin ilk rübünə aid göstəricilərdə öz əksini tapıb. ÜDM 2,3 faiz, qeyri-neft ÜDM-i 2,9 faiz, qeyri-neft ixracı 35 faiz və strateji valyuta ehtiyatları 2,2 milyard ABŞ dolları artıb, həmçinin tədiyyə balansı, icmal büdcənin balansı, manatın sabitliyi və təkrəqəmli inflyasiya sahəsində uğurlar əldə olunub. İslahatlar nəticəsində təmin edilən davamlı və balanslı iqtisadi inkişaf siyasi müstəqillik, dövlət quruculuğu, ordunun qüdrəti, sosial rifah, ictimai-siyasi sabitlik, habelə ölkəmizin beynəlxalq və regional layihələrdə iştirakı üçün maddi əsasdır.

Qeyd edilib ki, son bir ildə «Doing Business» hesabatının 10 indikatoru üzrə ciddi islahatlar aparılıb. Hazırda biznesə başlama üçün işçilərin qeydiyyatı da daxil olmaqla cəmi iki prosedur və iki gün tələb olunur. Tikinti icazələri sahəsində Bakı Şəhər İcra Hakimiyyətində «Bir pəncərə»nin fəaliyyəti, onlayn müraciətin tətbiqi və ASAN Kommunalın texniki şərtləri təqdim etməsi nəticəsində prosedurların sayı 21-dən 9-a qədər endirilib. Elektrikə çıxış üçün prosedurlar son bir ildə 7-dən 2-yə, günlərin sayı isə 69-dan 20-yə qədər endirilib, elektron xəritə, vahid tarif və onlayn müraciət imkanı yaradılıb. Əmlakın qeydiyyatı prosesi sürətləndirilib və cəmi 1 prosedur qalıb. Çünki, notariuslar Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti ilə inteqrasiya olunub. Özəl kredit bürosunun və daşınar əmlakın reyestrinin fəaliyyətə başlaması, həmçinin kreditlərə dövlət zəmanətinin verilməsi maliyyəyə çıxış imkanlarını genişləndirir.

Kiçik investorların hüquqlarının müdafiəsinin gücləndirilməsi üçün «Mülki Məcəllə»yə, «Müəssisələrin bağlanması» indikatoru üzrə isə «Müflisləşmə və iflas haqqında» qanuna edilən dəyişikliklər önəmli «Doing Business» islahatlarıdır. Qeyd edildiyinə görə, son bir ildə vergilərin ödənilməsi sahəsində irəliləyişlər olub. ƏDV-nin geri qaytarılması müddəti 45 gündən 20 günə endirilib, kameral yoxlamalar üçün 30 gün vaxt verilir. Gömrükdə yaşıl dəhliz və dünyada ilk dəfə olaraq Azərbaycanda onlayn vahid ixrac ərizəsinin tətbiqi mühüm «Doing Business» islahatlarıdır. Elektron məhkəmə sahəsində aparılan islahatlar (elektron ödəniş, elektron protokol, elekton əmr icraatı, elektron kabinet və s.) «Doing Business»də «Müqavilələrin icrası» indikatoru üzrə Azərbaycanın mövqelərini gücləndirəcək.

**Fəxriyyə İKRAMQIZI**

## İŞƏGÖTÜRƏNLƏRİN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşəgötürən ona məxsus iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxslə ilkin olaraq fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlamalı, bundan sonra əmək müqaviləsinin məlumatlarını Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sisteminə daxil edərək onun hüquqi qüvvəyə minməsi üçün müvafiq bildiriş əldə etməlidir.

Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi üçün işəgötürənin və ya onun səlahiyyət verdiyi şəxsin gücləndirilmiş elektron imzası, o cümlədən «ASAN imza»sı olmalıdır. «ASAN imza» SİM kartını mobil operatorların («Azercell», «Bakcell», «Nar Mobile») nümayəndəliklərindən əldə edib, vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etməklə «ASAN imza» sertifikatı ala bilərsiniz.

**İşəgötürən tərəfindən əmək müqaviləsi hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb olunması qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur:**

| Qanun pozuntuları | Məsuliyyət tədbirləri |
|---|---|
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürənlər tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə (Vergi Məcəlləsi, maddə 58.10) | hər bir belə işçi üzrə **1.000 manat** məbləğində maliyyə sanksiyası tətbiq edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (İnzibati Xətalar Məcəlləsi, maddə 192.1) | fiziki şəxslər **1.000 manatdan** **2.000 manatadək** miqdarda, vəzifəli şəxslər **3.000 manatdan 5.000 manatadək** miqdarda, hüquqi şəxslər **20.000 manatdan 25.000 manatadək** miqdarda inzibati cərimə edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda (yəni 10 nəfər və ondan çox olan) işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (Cinayət Məcəlləsi, maddə 162-1.1)<br><br>Eyni əməllər təkrar törədildikdə (Cinayət Məcəlləsi, maddə 162-1.2) | **7.000** manatdan **10.000** manatadək miqdarda cərimə və ya **2 ilədək müddətə islah işləri** və ya **2 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **2 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır.<br><br>**3 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **3 ildən 7 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır. |

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Əlavə məlumatı www.taxes.gov.az və www.e-gov.az saytlarından, vergi ödəyicilərinə xidmət mərkəzlərindən və «195-1»Çağrı Mərkəzindən əldə edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşə qəbul olunarkən işəgötürənlərdən əmək müqaviləsinin bağlanmasını tələb edin. Əmək müqaviləsi ilk növbədə sosial maraqlarınızın təmin olunmasına xidmət edir və rəsmiləşdirilməmiş əmək fəaliyyətinə razılaşmaqla Siz gələcəkdə dövlətin sosial təminatından və bir sıra üstünlüklərdən məhrum olursunuz.

| İşçinin hüquqları və üstünlükləri | Əmək müqaviləsi ilə fəaliyyət göstərdikdə | Əmək müqaviləsiz fəaliyyət göstərdikdə |
|---|---|---|
| 8 saatlıq iş hüququ | ✓ | ✘ |
| Əmək məzuniyyətindən istifadə hüququ | ✓ | ✘ |
| Peşə-əmək qabiliyyətinin itirilməsi hallarında icbari sığorta hüququ | ✓ | ✘ |
| Xəstəlik və işdənçıxma müavinətinin tam həcmdə alınması hüququ | ✓ | ✘ |
| Gələcəkdə layiqli əmək pensiyasının alınması imkanı | ✓ | ✘ |
| İpoteka və digər kreditləri almaq imkanı | ✓ | ✘ |
| Məhkəmədə hüquqların müdafiəsi | ✓ | ✘ |

İşəgötürənlə əmək müqaviləsi bağlamaqla və rəsmi əməkhaqqı ödəməyi tələb etməklə Siz gələcəyinizi indidən düşünmüş olursuz. Unutmayın ki, Sizə ödənilən rəsmi əmək haqları - sabah üçün sabit sosial təminatınızın təməlidir!

**Bununla bağlı hüquqlarınız pozularsa, vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya «195-1» Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Dövlət və özəl sektor nümayəndələri təcrübələrini bölüşürlər

**Mayın 5-də ölkəmizin aparıcı şirkətlərinin dəstəyi ilə «Rəqəmsal biznes. Trendlər» devizi altında keçirilmiş növbəti Maliyyə və İnvestisiya Forumunda Vergilər Nazirliyi, Maliyyə Bazarlarına Nəzarət Palatası, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin təmsilçiləri, habelə İsveç və Kiprdən dəvət olunmuş nümayəndələr iştirak etmişlər.**

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı açılış nitqi ilə çıxış edərək bildirmişdir ki, Azərbaycan Prezidentinin rəhbərliyi ilə aparılan iqtisadi islahatlar nəticəsində ölkəmiz post-neft dövrünə sürətlə adaptasiya olmuş, 2017-ci ilin son rübündən iqtisadi artım tempini bərpa etmişdir: «Hazırda iqtisadi islahatların əsas strateji hədəfi davamlı inkişafın təmin edilməsidir. Bunun üçün biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində vergi, gömrük, maliyyə-bank və s. sahələrdə islahatlar dərinləşdirilir. Yeni iqtisadi mühitə uyğun institusional inkişaf təmin edilir. Biznes mühiti və institusional islahatlar bir-birini tamamlayır, eyni zamanda fiskal və monetar siyasətin kombinasiyası da vacib şərtlərdəndir. Nəticəəsaslı büdcə, orta müddətli xərclər çərçivəsi və üzən məzənnəyə keçid makro səviyyədə tarazlığın və sabitliyin uzun müddətdə qorunması, iqtisadi inkişafa stimul verilməsi üçün əhəmiyyətlidir».

V.Qasımlının sözlərinə görə, bank sektoru inam üzərində qurulub və islahatların əsas hədəfi bu inamı daha da gücləndirməkdir: «İpoteka və Kredit Zəmanət Fondu, Özəl Kredit Bürosu və Daşınar Əmlakın Yüklülüyü reyestri kimi yeni institutlar maliyyəyə əlçatanlığı daha da artırır. Manatın sabitliyi, təkrəqəmli inflyasiya, qeyri-neft ticarət və xidmət balansının yaxşılaşması, qeyri-neft sektorunda 3 faizədək artım və strateji valyuta ehtiyatlarının 45 milyard ABŞ dollarına yaxınlaşması bank sektorunun canlanmasına əlavə təkan verir. Maliyyə-bank sektoru iqtisadiyyatın prioritet istiqamətlərinin maliyyələşməsini artırmaqla həm özünü, həm də iqtisadiyyatın rəqabət qabiliyyətini gücləndirə bilər. Banklarımız yeni maliyyə texnologiyalarını da tətbiq etməklə «inkişaf bankı modeli»nə uyğun olaraq, sahibkarlara daha yaxın olmalıdırlar. İnflyasiya həddini də nəzərə alsaq, Azərbaycanda kredit faizləri kifayət qədər əlverişlidir. Əsas odur ki, sahibkarlarımız işlərini düzgün qursunlar və bankları onlara kredit verəcək həddə qədər inandırsınlar. Özəl sektor kredit almaq üçün korporativ standartlara sahib olmalı, strategiya işləməli, texnoloji və idarəetmə sistemlərinin xəritələrini tərtib etməli, habelə düzgün marketinq, insan qaynaqları, maliyyə, innovasiya və satış siyasətini qurmalıdır. Bankların vəzifəsi, əslində, kredit resurslarını satmaqdır, amma risklər antipatiya yaratmalı deyil. Buna görə də sahibkarlarımız fəal və təşəbbüskar olmalı, əsaslandırılmış biznes planları ilə kredit cəlb etməlidirlər».

Bildirilmişdir ki, iqtisadi islahatların gündəliyində ölkəmizin beynəlxalq və regional əhəmiyyətli layihələrdə mövqeyinin gücləndirilməsinə və müstəqilliyimizin möhkəmləndirilməsinə töhfə vermək kimi məsələlər də var. Sosial bazar modelinə uyğun olaraq iqtisadi islahatların fövqündə isə Azərbaycan vətəndaşı, onun rifah halı dayanır. Ölkədə aparılan iqtisadi islahatlar sosial yönümlüdür: «İslahatlar dövlət-vətəndaş-biznes üçbucağı arasında tarazlığı və harmoniyanı qorumaqla davamlı inkişafa xidmət edir. İslahatlar nəticəsində Azərbaycan iqtisadiyyatının strukturu yeni dövrün çağırışlarına uyğunlaşır. Hazırda turizm, kənd təsərrüfatı, alüminium, polad, emal sənayesi, nəqliyyat, elektrik enerjisi kimi sahələr bir tərəfdən ixracın artmasına dəstək verir, digər tərəfdən isə idxalı əvəzləyir. Nəticə etibarilə ölkənin valyuta balansı daha da yaxşılaşır və manatın sərbəst üzməsi üçün daha əlverişli şərait yaranır. Həm fiskal, həm də tədiyyə balanslarının yaxşılaşması imkan verir ki, makroiqtisadi sabitlik qorunsun. Əlverişli biznes mühiti və sabitlikdən istifadə etməklə, məhsuldarlığın artırılmasına nail olmaq lazımdır. Bunun üçün yeni texnologiyalar və insan kapitalı əsas şərtdir. Postindustrial cəmiyyətdə əsas hərəkətverici qüvvə bacarıqlar, data və institutlardır. Digər tərəfdən, xarici bazarlara çıxış imkanının artırılması və qlobal dəyər zəncirlərinə qoşulmaq vacib məsələdir».

Forumun «İnvestisiya strategiyaları» mövzusuna həsr edilmiş birinci panelində «Societe Generale» bankının baş maliyyə direktoru Efe Ezerin, SOCAR-ın maliyyə bazarları üzrə məsləhətçisi Tolga Kotanın, «7Marketz Group Inc.» şirkətinin təsisçisi Yaqub Rəhimovun, «Keepface» şirkətinin təsisçisi Emin Vəliyevin çıxışları dinlənilmişdir. Müzakirələrdə təkcə dünyada, o cümlədən Azərbaycanda maliyyə bazarlarında əhəmiyyətli xarakter daşıyan hadisələr əhatə olunmuş, gələcək trendlərlə bağlı fikirlər səsləndirilmişdir.

«Vergi siyasəti və mühasibat uçotu» adlı ikinci paneldə qeyri-ənənəvi vergitutma mexanizmləri müzakirə edilmişdir. Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktorunun müavini Nicat İmanov «Vergi siyasətinin bu günü və sabahı, vergi qanunvericiliyi islahatları» mövzusunda çıxış edərək bildirmişdir ki, ölkə iqtisadiyyatında şəffaflığın artırılması, o cümlədən vergi ödəyicilərinin gəlir və xərclərinin uçotunun təmin edilməsi, mövcud islahatlar fonunda vergidən yayınma hallarının aradan qaldırılması və büdcə daxilolmalarının tam həcmdə və vaxtında yığılmasına nail olmaq məqsədilə dövlət vergi orqanlarının qarşısında duran əsas vəzifələr müəyyən edilir: «Vergilər Nazirliyinin qarşısında duran əsas vəzifələr şəffaf vergi uçotunun qurulması, vergidən yayınma hallarının qarşısının alınması istiqamətində vergi nəzarətinin gücləndirilməsi, vergi inzibatçılığının səmərəliliyinin artırılması, kiçik sahibkarlıq subyektlərinin dayanıqlığının təmin edilməsi, vergi oqranları ilə vergi ödəyiciləri arasında etimadın yüksəldilməsi və onlara göstərilən xidmətlərin kəmiyyət və keyfiyyət baxımından artırılmasından ibarətdir».

N.İmanov çıxışında vergidən yayınma hallarının aradan qaldırılması istiqamətində görülən tədbirlərdən danışmış, e-qaimə fakturanın tətbiqi zamanı, eləcə də uğurlu investisiya mühitinin yaradılmasında şəffaf uçot mexanizmləri ilə bağlı meydana çıxan məsələlərə toxunmuşdur.

«Baker Tilly» şirkətinin vergi və hüquq məsələləri üzrə partnyoru Nərmin Hacıyeva, KPMG audit şirkətinin vergi üzrə partnyoru Müşfiq Əliyev, «SM Consulting» şirkətinin təsisçisi və direktoru Emin Səttarov elektron ticarətin vergiyə cəlb olunması, maliyyə sektorunda vergi məsələləri, ƏDV-nin praktiki tətbiqi və özəllikləri barədə danışmış, sualları cavablandırmışlar.

«Maliyyələşmə strategiyaları» mövzusuna həsr edilmiş paneldə PwC şirkətinin nümayəndəsi Vüqar Axundov, «Ata Sığorta»nın təmsilçisi Orxan Məmmədov, «AFB Bank»ın nümayəndəsi Aydın Hüseynov, «Paşa Bank»dan Xəyalə Nağıyeva, Maliyyə Bazarlarına Nəzarət Palatasından Taleh Məmmədov mövzu ilə bağlı fikirlərini bildirmiş, tədbir iştirakçılarının suallarını cavablandırmışlar.

Qeyd edək ki, Maliyyə və İnvestisiya Forumu hər il keçirilir. İlk forum keçən ilin may ayında təşkil olunmuşdu.

**Fəxriyyə İKRAMQIZI**

## Azərbaycan Respublikasının Vergilər Nazirliyi işə qəbulla bağlı müsabiqə ELAN EDİR

Dövlət vergi orqanlarına xidmətə qəbul «Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə»nin, «Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə»nin və Vergilər Nazirliyinin 24 iyun 2014-cü il tarixli 1417040100819300 nömrəli əmri ilə təsdiq edilmiş «Dövlət vergi orqanlarına işə qəbulla əlaqədar sənədlərin toplanması, yoxlanılması, müsabiqənin keçirilməsi, ehtiyat kadrların formalaşdırılması və idarə edilməsi Qaydaları»nın tələblərinə müvafiq olaraq aparılır.

Müsabiqədə iştiraka bir qayda olaraq aşağıdakı ixtisaslar üzrə ali təhsilə malik (xarici ölkədə təhsil almış namizədlərin diplomları müvafiq qaydada nostrifikasiya olunmalıdır), yaşı 35-i keçməmiş (müvafiq ixtisas üzrə elmi dərəcəsi olan şəxslər, ali təhsili fərqlənmə diplomu ilə bitirmiş şəxslər, yüksək peşə hazırlığına və ya iş təcrübəsinə malik şəxslərə yaş həddi tətbiq edilmir) vətəndaşlar buraxılırlar:

1. Hüquqşünaslıq;
2. Beynəlxalq hüquq;
3. Dünya iqtisadiyyatı;
4. Maliyyə;
5. İqtisadiyyat;
6. Statistika;
7. Beynəlxalq iqtisadi münasibətlər;
8. Mühasibat uçotu və audit;
9. Maliyyə və kredit;
10. İqtisadiyyatın tənzimlənməsi;
11. Qiymət və qiymətin əmələ gəlməsi;
12. Xəzinə əməliyyatlarının uçotu;
13. İqtisadi nəzəriyyə;
14. Vergilər və vergitutma;
15. İqtisadi siyasət;
16. Dünya iqtisadiyyatında informasiya texnologiyaları;
17. Milli hesablar sistemi;
18. Qiymətləndirmə (sahələr üzrə);
19. Qiymətli kağızlar;
20. Gömrük işinin təşkili;
21. Gömrük ekspertizası (sahələr üzrə);
22. İqtisadiyyatın hüquqi tənzimlənməsi;
23. Vergi işinin təşkili və idarə edilməsi;
24. Tətbiqi riyaziyyat;
25. Avtomatlaşdırılmış layihələndirmə sistemləri (sahələr üzrə);
26. İnformasiya işlənməsinin və idarəetmənin avtomatlaşdırılmış sistemləri (sahələr üzrə);
27. Avtomatlaşdırılmış sistemlərin və hesablama texnikasının proqram təminatı;
28. Məlumatların mühafizəsinin texnologiyası və təşkili;
29. Avtomatlaşdırma və informasiya texnikası.

«Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə»nin 9-cu maddəsinə əsasən vətəndaş aşağıdakı hallarda vergi orqanlarında xidmətə qəbul oluna bilməz:

- məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə məhdud fəaliyyət qabiliyyətli və ya fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə;
- üzərindən məhkumluğu götürülmədikdə və ya ödənilmədikdə.

Qanunla müəyyən olunmuş müddətli həqiqi hərbi xidmət keçməmiş (qanuni əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olanlar və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilənlər istisna olmaqla) çağırış yaşlı vətəndaşlar dövlət vergi orqanlarında xüsusi rütbələr nəzərdə tutulmuş vəzifələrə xidmətə qəbul edilmirlər.

Müsabiqəyə əlavə sənəd qəbulu elektron ərizə vasitəsilə **26.04.2018-ci il saat 10:00-dan 09.05.2018-ci il saat 24:00-dək** həyata keçirilir. Müsabiqədə iştirak etmək istəyən vətəndaşlar göstərilən müddət ərzində Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az və www.e-taxes.gov.az) daxil olaraq elektron ərizə formasını doldurmalıdırlar. Ərizə formasına sağlamlıq haqqında tibbi arayışın, ali təhsil haqqında diplomun, məhkumluğun olması (olmaması) barədə arayışın və narkoloji dispanserdə qeydiyyatda olması (olmaması) barədə arayışın surətləri mütləq qaydada fayl şəklində əlavə olunmalıdır. Ərizə formasını doldurub sistemə daxil etdikdən sonra namizədə ərizənin sistemə daxil olunduğu barədə elektron poçt ünvanına məlumat verilir. Namizədin ərizəsi qəbul edildikdən 5 gün ərzində baxılır, ərizə qəbul edilərsə namizədin iş nömrəsi və test imtahanının vaxtı və yeri barədə, ərizə qəbul edilmədiyi halda isə səbəbi barədə elektron poçt ünvanına məlumat verilir. Ərizə göndərilən müddətdən 5 gün ərzində elektron poçt ünvanına heç bir məlumat göndərilməyən vətəndaşlar elanda qeyd olunmuş telefon nömrəsi ilə əlaqə saxlamalıdırlar.

**Qeyd: Dövlət vergi orqanlarına işə qəbulla əlaqədar 05-30 dekabr 2017-ci il tarixlərdə qeydiyyatdan keçmiş və elektron ərizələri qəbul edilmiş vətəndaşların müsabiqədə iştirak hüququ saxlanılır.**

Namizədlər internet vasitəsi ilə elektron ərizə formasını doldura bilmədikdə və ya bu zaman hər hansı texniki problem yarandıqda **012-403-81-35** nömrəli telefonla Vergilər Nazirliyinə, Bakı şəhərində və regionlarda fəaliyyət göstərən vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərlər.

Elektron ərizə vermiş namizədlər **23-25.05.2018-ci il tarixdə** (saat 10:00-dan 18:00-a dək) imtahana buraxılış vərəqələrini Vergilər Nazirliyinin inzibati binasından (Bakı şəhəri, Yasamal rayonu, ak. Landau küçəsi 16) götürməlidirlər. Müsabiqənin test imtahanı mərhələsi 26.05.2018-ci il tarixdə Dövlət İmtahan Mərkəzinin müəyyən etdiyi yerdə və vaxtda keçiriləcəkdir.

Müsabiqənin test imtahanı mərhələsinin suallarını özündə əks etdirən yenilənmiş ədəbiyyat siyahısı Vergilər Nazirliyinin rəsmi internet saytının (www.taxes.gov.az) «İşə qəbul. Müsabiqələr» bölməsində yerləşdiriləcəkdir.

Son 1 il ərzində ingilis dilini bilmə səviyyəsi TOEFL (IBT) 100 və 100-dən yuxarı və ya IELTS üzrə 7 və 7-dən yuxarı olan namizədlərə üstünlük verilir. Namizəd ingilis dili səviyyəsini təsdiq edən müvafiq sənəd barədə məlumatları (sənədin adını, nömrəsini, qısa məzmununu və ingilis dili səviyyəsini) elektron ərizə formasının «Əlavə qeydlər» hissəsində göstərməlidir.

**Müsabiqədə müvəffəqiyyət qazanmış, lakin vakant vəzifələr üzrə iş təklifindən imtina edən namizədlər Vergilər Nazirliyinin kadr ehtiyatından çıxarılacaqdır**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## 2018-ci ilin aprel ayı ərzində vergi orqanına təqdim edilməli bəyannamələr və ödənilməli VERGİLƏR

**Əmlak və torpaq vergisinin ödəyiciləri olan müəssisələr**

- 2018-ci il üzrə torpaq vergisinin bəyannaməsini cari ilin may ayının 15-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.
- 2018-ci ilin 2-ci rübü üzrə əmlak vergisinin cari ödəmələrini may ayının 15-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**2018-ci ilin aprel ayına görə vergi ödəyiciləri tədiyyəçisi olduqları**

- Əlavə dəyər vergisinin bəyannaməsini;
- Aksiz bəyannaməsini;
- Yol vergisinin bəyannaməsini;
- Mədən vergisinin bəyannaməsini;
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsini və
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini

cari ilin **may ayının 21-dən gec olmayaraq** vergi orqanına təqdim etməli və hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

- Daşınmaz əmlak təqdim edən şəxslərdən ödəmə mənbəyində tutulan sadələşdirilmiş verginin bəyannaməsi cari ilin may ayının 21-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).
- Muzdlu işlə əlaqədar 2018-ci ilin aprel ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi cari ilin may ayının 21-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir *(ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri tərəfindən bəyannamə illik - növbəti ildə yanvar ayının 31-dən gec olmayaraq, digər vergi ödəyiciləri tərəfindən cari ilin 2-ci rübü üzrə iyul ayının 20-dən gec olmayaraq təqdim edilməlidir)*.
- Xüsusi notariusların 2018-ci ilin aprel ayı üzrə hesabladığı gəlir vergisi cari ilin may ayının 21-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (2-ci rüb üzrə bəyannamə iyul ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).

***Bəyannamələr müəyyən edilən müddətdə təqdim edilmədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).***

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı (https://www.e-taxes.gov.az) vasitəsilə elektron qaydada da təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi tövsiyə edirik.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2015-ci ilin may və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2018-ci ilin may və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;
* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

# Bitkoin daşınan əmlakla bərabər tutulacaq

Fransada bitkoin və digər kriptovalyutaları yenidən təsnif etmək və treyderlərin kriptovalyutalardan əldə etdikləri vəsaiti «daşınan əmlakdan» kapital artımı kimi vergiyə cəlb etmək üçün hazırlıq gedir. Bundan əlavə, verginin dərəcəsində də əhəmiyyətli dəyişiklik ediləcək, 45 faizdən 19 faizə endiriləcək.

Bu ilin əvvəllərində bir neçə vergi ödəyicisi Fransanın inzibati məhkəməsinə iddia ərizəsi vermişdilər. Onların iddiası 2014-cü ilin noyabrından qüvvəyə minmiş bitkoinlərdən və rəqəmsal valyutalar ilə əlaqəli digər tranzaksiyalardan vergi tutulması ilə bağlı idi.

Qanunvericiliyə əsasən, valyutalarla edilmiş əməliyyatdan gələn gəlirlər davamlı fəaliyyət zamanı kommersiya gəlirləri, birdəfəlik tranzaksiyalar zamanı isə qeyri-kommersiya gəliri hesab edilirdi. Bu cür təsnifat əsasında vergi ödəyiciləri 45 faizə qədər vergi ödəməyə məcbur edilə bilərdilər.

Fransa kütləvi informasiya vasitələrinin məlumatında bildirilir ki, Dövlət Şurası yuxarıda göstərilmiş iş üzrə iddiaçıların qismən xeyrinə olan qərar qəbul etmişdir. Qərara əsasən, tranzaksiyalardan gələn gəlirin necə tənzimlənməsinə yenidən baxılacaq, bundan sonra həmin gəlir «daşınan əmlakdan» əldə edilmiş gəlir kimi qiymətləndiriləcək.

Bu isə o deməkdir ki, həmin gəlirlər bundan sonra 19 faizlik sabit dərəcə ilə vergiyə cəlb olunmalıdır. Bu, əvvəlki ilə müqayisədə əsaslı şəkildə azdır.

Keçən ilin sonunda Fransanın fond bazarının tənzimləyici orqanı bitkoin və digər rəqəmsal valyutalar ilə əlaqədar müsbət münasibət bildirərək bəyan etmişdi ki, bu valyutalar biznesin qanuni tələblərini yerinə yetirə bilərlər.

# «Apple» ödəmədiyi vergini qaytaracaq

2003-2014-cü illər üzrə yığılıb qalmış 13 milyard avro məbləğində vergi borclarının qaytarılması ilə bağlı İrlandiya hökuməti ilə «Apple» şirkəti arasında konkret müddətlər müəyyənləşdirilmişdir. İrlandiyanın maliyyə naziri Paskal Donaxyunun sözlərinə görə, şirkətin ödəyəcəyi pul vəsaitləri 2018-ci ilin ikinci rübündən ayrı-ayrı tranşlar halında daxil olacaq. Rusiyanın «Kommersant» qəzetinin yazdığına əsasən, şirkətin İrlandiyaya olan borclarının hamısını sentyabr ayına qədər ödəyəcəyi gözlənilir.

Qeyd edək ki, «Apple» şirkətinin Avropa İttifaqı ölkələrinə vergi borcu məsələsi ilk dəfə 2016-cı ilin avqustunda qaldırılmışdı: Avropa Komissiyası o vaxt müəyyən etmişdi ki, 2003-2014-cü illəri əhatə edən dövr ərzində İrlandiya hökuməti ödəniləcək vergi məbləğlərini aşağı salmaq üçün şirkətə şərait yaratmışdır. Oktyabr ayında isə Avropa Komissiyası İrlandiya hökumətini «Apple» şirkətindən vergi ala bilmədiyinə görə məhkəməyə vermişdi. Bundan sonra həm şirkət, həm də İrlandiya hökuməti Avropa Komissiyasının qərarına etirazlarını bildirsələr də, 2017-ci ilin sonunda vergilərin ödənilməsi ilə bağlı ilkin razılıq əldə edilmişdi.

# Pullarını offşorlarda gizlədən Rusiya vətəndaşlarının adları açıqlanacaq

«The Times» qəzetinin məlumatına əsasən, öz pul vəsaitlərini Böyük Britaniyaya aid offşor zonalarda - Virciniya və Kayman adalarında gizlədən Rusiya sahibkarlarının adları Böyük Britaniya parlamentində müzakirəsi keçiriləcək yeni qanun layihəsi qüvvəyə mindikdən sonra açıqlana bilər.

İndiyə qədər qüvvədə olan qanunvericilikdə Britaniyaya aid ada ərazilərində aktivləri olan sahibkarların adlarının açıqlanması tələb olunmurdu. Qəzetin yazdığına görə, mühafizəkarların və leyboristlərin koalisiyası, eləcə də Şotlandiya milli partiyasının təmsilçiləri bu qanun layihəsini dəstəkləyəcəklər. «Xanım Mey indiyə qədər dünyanı Rusiyanın beynəlxalq normaları pozmasına reaksiya verməyə çağırırdı. Əgər o öz vədini yerinə yetirmək istəyirsə, təsdiq etməlidir ki, dünyanın harasında olursun pis məqsədlər üçün gələn çirkli pullar Britaniya bayrağı altında gizlədilə bilməz», - mühafizəkarların nümayəndəsi Endrü Mitçell «The Times» qəzetinə müsahibəsində demişdir.

Qeyd edək ki, 2014-cü ilin göstəricilərinə əsasən, dünyadakı on ən böyük offşor zonadan altısı Böyük Britaniyaya aiddir.

«The Sunday Times» qəzetinin son araşdırmasına əsasən, Rusiya vətəndaşlarının Britaniyanın offşor zonalarında saxladıqları vəsaitlərin məbləği 34 milyard funt sterlinq (47 milyard dollar) təşkil edir və həmin vəsaitin 30 milyard funt sterlinqi (41,5 milyard dollar) Virciniya adalarının payına düşür. Rusiya vətəndaşlarının offşor hesablarda saxladıqları ümumi məbləğ Böyük Britaniyanın özündəki banklarda saxladıqları vəsaitin məbləğindən beş dəfə çoxdur.

# Rusiyada kurort yığımı üzrə eksperiment aparılacaq

Dörd pilot region - Krım, Altay, Krasnodar və Stavrapol diyarları öz ərazilərindəki turizm infrastrukturundan istifadə üçün vergi tutmaq səlahiyyəti əldə etmişdir. Yığım mehmanxanada 24 saatdan artıq yaşayan həddi-büluğa çatmış vətəndaşlardan tutulacaq.

Qanuna əsasən, kurort yığımının həcmi 100 rubldan (2,66 manat) artıq olmayacaq. 2018-ci il üçün bu məbləğ 50 rublla (1,33 manat) məhdudlaşdırılmışdır. Konkret dərəcələri və güzəştləri isə regional hakimiyyət dairələri müəyyənləşdirəcək.

Krımda eksperiment 2019-cu ilin may ayına qədər təxirə salınmışdır. Krasnodar diyarında isə dünya çempionatına gələn tərəfdaşları və nümayəndələri vergiyə cəlb etməmək məqsədilə kurort vergisini yığmağa bu il iyulun 16-dan başlayacaqlar - əvvəlcə bu tarix may ayının 1-nə müəyyənləşdirilmişdi.

# Almaniyalı həkimlər Merkeldən «şəkər vergisi»nin tətbiqini xahiş ediblər



İki mindən artıq həkim Almaniyanın Kansleri Angela Merkelə, onun rəhbərlik etdiyi hökumətin nazirlərinə və ölkədəki aparıcı partiya liderlərinə açıq məktub ünvanlamışdır. Məktubda bütün ölkə ərazisi üzrə şəkərdən izafi istifadənin federal səviyyədə qarşısının alınması üçün mübarizə tədbirlərinin görülməsi xahiş edilmişdir. Buna oxşar olaraq, həkimlər tütün məhsullarından həddindən artıq istifadənin məhdudlaşdırılması üçün kompleks qanunvericilik aktlarının qəbul olunmasını təklif etmişlər. Təklifdə tütün məhsulları ilə yanaşı, şəkər də daxil olmaqla, bir sıra məhsullara (ilk növbədə, şirin içkilərə) vergilərin və aksizlərin tətbiqinin zəruriliyi, eləcə də uşaqlara ünvanlanmış reklamların qadağan olunması qeyd edilmişdir. Məktub müəllifləri hesab edirlər ki, Almaniyada piylənmənin və diabet xəstəliyinin yayılmasının qarşısını başqa yollarla almaq mümkün deyil.

Hələlik Almaniya hökuməti həkimlərin açıq məktubuna rəsmi cavab verməmişdir. Merkelin mənsub olduğu Xristian-Demokrat İttifaqı Partiyasından olan bəzi hökumət üzvləri belə hesab edirlər ki, nəyi yemək lazım olduğunu, nəyi yemək lazım olmadığını əhaliyə hökumətin adından çatdırmaq yolverilməzdir, ancaq sağlam qidaları və bütövlükdə sağlam həyat tərzini güclü şəkildə təbliğ etməyə dəyər. Hökumət koalisiyasına daxil olan sosial-demokratlardan bir qrupu isə hesab edir ki, təklif olunan məhdudiyyətlərin, o cümlədən şəkər istehlakının azaldılması məqsədəuyğundur.

Parlamentin sosial-demokratlar fraksiyasının səhiyyə məsələləri üzrə eksperti xanım Zabine Dittmar əminliklə bildirmişdir ki, Almaniyada «şəkər vergisi», necə olur-olsun, qəbul ediləcək, özü də cari çağırış parlament tərəfindən. Başqa sözlə desək, deputat «şəkər vergisinin» qarşıdakı üç il müddətində qəbul olunacağına inanır.

Təşəbbüskar olaraq Uşaq və Yeniyetmə Həkimlərinin Peşəkar Assosiasiyası, Almaniya Diabetoloqlar Cəmiyyəti və Berlində fəaliyyət göstərən, ərzaq məhsulları sahəsində istehlakçıların hüquqlarını müdafiə edən «Foodwatch» qeyri-hökumət təşkilatı çıxış etmişdir. Aprelin əvvəlində «Foodwatch» Berlində hökumətə 100 səhifədən ibarət «Coca-Cola Report» («Koka-Kola haqqında hesabat») adlı sənəd təqdim etmişdi. Həmin sənəddə təsdiqlənirdi ki, dünyanın alkoqolsuz içkilər istehsal edən ən böyük şirkətlərindən biri öz «məsuliyyətsiz marketinq və lobbi fəaliyyətləri ilə piylənmə və II tip diabet kimi qidalanma ilə bağlı xəstəlik epidemiyalarının böyük hissəsinə cavabdehdir».

«Foodwatch» Avropa İttifaqlı miqyasında «işıqfor» şəklində işarələnmə tətbiq etmək, yəni tərkibində izafi şəkər, piy və duz olan məhsulları qırmızı rənglə işarələmək təklifini irəli sürmüşdür. Bundan əlavə, təşkilat Almaniya ərazisindəki uşaq bağçalarında və məktəblərdə həkimlərin məsləhət gördükləri minimal qida standartlarını qəbul etməyi təklif etmişdir. Almaniya fəalları digər ölkələrdən nümunə götürməyin tərəfdarı kimi çıxış edirlər: artıq aprelin 6-dan Böyük Britaniyada və İrlandiyada 100 ml hesabına tərkibində 5 qramdan artıq şəkər olan qazlı içkilərə görə vergi tutulur.

**«Foodwatch» təşkilatının məlumatına əsasən, Britaniyada doldurulan «Fanta»nın tərkibində şəkər azaldılaraq, 6,9 qramdan 4,6 qrama çatdırlımışdır. Almaniyada isə «Coca-Cola» şirkəti bu içkinin tərkibinə təxminən 9 qram şəkər qatır. Fransa, Portuqaliya, Meksika, Çili, Şri-Lanka və Vyetnam da daxil olmaqla, digər ölkələr də analoji yol seçmişlər. Bəzi ekspertlər isə «şəkər vergisi»nin tətbiqi ilə piylənmə və diabet kimi «zəmanə xəstəliklərinin» qarşısının alınmasına inamsız yanaşırlar.**

# Dünya Bankı Latın Amerikası ölkələrindən fiskal islahatlar aparmağı tələb edib

Amerika qitəsinin inkişaf səviyyəsi aşağı olan ölkələri iqtisadiyyatın bərpa olunduğu barədə məlumat yaydıqları bir zamanda Dünya Bankının yeni məruzəsində hökumətlərin büdcə kəsirlərini azaltmaq üçün fiskal siyasətlərinə yenidən baxmalarının zəruri olduğu bildirilmişdir.

Məruzə «Latın Amerikasında və Qəraib hövzəsində vergi-büdcə dəqiqləşdirməsi: qısamüddətli ağrı, yoxsa uzunmüddətli qazanc?» adlanır. Sənəddə qeyd edilmişdir ki, iqtisadi vəziyyətin müsbət nəticələr nümayiş etdirdiyi zamanda fiskal islahatların aparılması maliyyə azadlığı yaradılmasının ayrılmaz tərkib hissəsi olmalıdır».

«Mərkəzi və Cənubi Amerikanın bir neçə dövlətində büdcəni tədricən dəqiqləşdirməyə başlayıblar, - məruzədə göstərilmişdir. - Ölkələrin iqtisadi potensialının inkişaf etdirilməsi ilə əlaqədar olaraq vergitutma sahəsində islahatların tempini artırmağın zamanıdır, zəruri olarsa, fiskal qanunları gücləndirmək və işə salmaq lazımdır».

Dünya Bankı region ölkələrinə vergi siyasətinə diqqət yetirməyi tövsiyə etmişdir: bu siyasət artım templərinə mane olmamalıdır. «Borcların azaldılması və digər fiskal islahatlar zamanı mütləq nəzərə alınmalı olan mühüm məsələ budur ki, iqtisadiyyat və vergi göstəriciləri müsbət investisiya səviyyəsinə uyğun olmalıdır». Dünya Bankının açıqlamasına əsasən, bu, xidmət üçün xərclərin azaldılması, eləcə də rifah halının yaxşılaşdırılması və infrastrukturun təkmilləşdirilməsi üçün mühümdür.

krossvord




**Yuxarıdan aşağı:** 1.Kimyəvi element (metal); 2.Yapon dənizinin qərbində yerləşən kiçik adalar qrupu; 3.Motorlu velosiped; 4.Şimal Buzlu okeanının ucqar dənizi; 5.ABŞ-ın Nebraska ştatının ən iri şəhəri; 6.Şərur rayonunda kənd; 9.Görkəmli tacik şairi, musiqişünas, filosof və alim. «Yusif və Züleyxa» əsərinin müəllifi; 13.Kişi adı; 15.Təcrübəli döyüşçü, müharibə iştirakçısı. Məcazi mənada, hər hansı sahədə uzun müddət çalışan şəxsə də deyilir; 16.Ticarət gəmisi kapitanı; 17.İslam dövlətlərində hökmdar titulu; 18.Qurğuşun parıltısına bənzər qara rəngli mineral. Karandaşların istehsalında geniş istifadə olunur; 20.Balaca metal diyircək, çarx, təkər; 21.Polineziya kökənli Yeni Zelandiya əhalisi.

**Soldan sağa:** 1.Pakistan İslam Respublikasının paytaxtı; 5.Lirik şeir və musiqi janrı; 7.Xalqın mənsub olduğu ölkədən kənarda yaşayan mühüm hissəsi; 8.Türkiyədə istehsal olunan spirtli içki; 10.Rusiyada çay; 11.ABŞ və Kanadada şəlalə; 12.Keniyanın simli çalğı aləti; 14.Qohumluq dərəcəsi; 19.Türk xalqlarının bir çoxunun folklorunda yarımistik xalq qəhrəmanı; 21.Müxtəlif enerji növlərini (məsələn, termiki, kimyəvi, elektrik və s.) mexaniki enerjiyə çevirən qurğu; 22.Dünya futbol tarixində ən məşhur futbolçulardan biri; 23.Xalqı öyrənən, təsvir edən, xalqa daha yaxın olan, onun adət-ənənələri, istək və arzularına daha çox bələd olan elm və bu elmin mütəxəssisi; 24.Səs-küylü müasir musiqi növü; 25.İstirahət və sağlamlıq mərkəzi.


ABŞ və Kanadada şəlalə

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Bumçay; 2.Sitroen; 3.Eyfel; 4.Berinq; 5.Qabil *(İmamverdiyev)*; 6.Çardaş; 9.Aton; 13.Vəba; 15.Proteje; 16.Oktava; 17.Simurq; 18.Parter; 20.Litva; 21.Bravo. **Soldan sağa:** 1.Basketbol; 5.Qoç; 7.Metafora; 8.Ubır; 10.Atoll; 11.Natella *(Adıgözəlova)*; 12.Aniva; 14.Şnaps; 19.Kolibri; 21.Biota; 22.Arta; 23.Budapeşt; 24.Ana; 25.Hiqrometr.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

idman

# Velosipedçilərimizin uğurları

## Rusiya



Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində Beynəlxalq Velosipedçilər İttifaqının (UCI) 2.2 kateqoriyalı «Moskvanın 5 halqası» (Five Rings of Moscow) veloturuna yekun vurulub. 23 komandanın mübarizə apardığı yarışda ölkəmizi kontinental velosiped komandamız «Synergy Baku»nun üzvləri Musa Mikayılzadə, Ənvər Asanov, Kiril Pozdnyakov, Kərim Şirəliyev, Samir Cəbrayılov və Telman Vəliyev təmsil ediblər.

Yarışın 1-ci mərhələsində komandamızın üzvlərindən ən yüksək nəticəyə Kiril Pozdnyakov imza atıb - o, 156,8 km məsafəni üçüncü sırada tamamlayıb. Turnirin sonuncu, 4-cü mərhələsində isə K.Pozdnyakov bütün rəqiblərini geridə qoyaraq finişi birinci keçib. 122 km-lik mərhələni 3 saat 1 dəqiqə 40 saniyəyə başa vurmaqla hamını qabaqlayan təmsilçimiz, 4 mərhələnin yekununa əsasən, ümumi təsnifatda qalibdən 43 saniyə geri qalmaqla ikinci yeri tutub.

## Türkiyə

Şose velosipedi üzrə yeniyetmə və gənclərdən ibarət yığma komandalarımız mayın 5-6-da Türkiyənin Ordu şəhərində təşkil olunan bu ölkənin çempionatında uğurla çıxış ediblər. Baş məşqçi Əbülfəz Məmmədovun rəhbərliyi altında qardaş ölkədə 9 oğlan və 1 qız velosipedçimiz mübarizə aparıb.

Yeniyetmə qızların 15 km məsafəyə kriterium ötüşməsində yeganə qız idmançımız Viktoriya Sidorenko fərqlənib - o, bütün rəqiblərini qabaqlamaqla fəxri kürsün ən yüksək pilləsinə qalxıb. Qeyd edək ki, idmançımız ilk yarış günündə 40 km məsafəyə qrup ötüşməsində finişi ikinci keçmişdi.

Heyəti Nəcəf Bağırov, Xankişi İsgəndərov, Qadir Mustafayev, Şahin Eyvazov, Əli Qurbanov və Mahmud Məmmədovdan ibarət olan gənclər yığmamız isə qrup və kriterium ötüşmələrinin yekununda komanda hesabında üçüncü olub və bürünc medala layiq görülüb.

# Dünya kuboku yarışlarında qızıl medal




Triatlon üzrə Azərbaycan yığmasının üzvü Rostislav Pevstov Çinin Çenqdu şəhərində keçirilən Dünya kuboku yarışlarında qızıl medal qazanıb. İki mərhələdən ibarət olan yarışın yarımfinalında 5-ci yeri tutan təmsilçimiz finala yüksəlib. Finalda R.Pevtsov 500 metrlik su məsafəsini 6 dəqiqə 29 saniyəyə başa vurub, 10 kilometrlik veloyürüşü isə 13 dəqiqə 43 saniyəyə qət edib. Yarışın sonuncu mərhələsi - 2,5 kilometr məsafəyə qaçışda 7 dəqiqə 3 saniyəlik nəticə ilə ümumi hesablamada 28 dəqiqə 18 saniyə vaxt göstəricisi üzrə idmançımız birinci yerə layiq görülüb.

# Azərbaycan güləşçiləri Avropa çempionatını 18 medalla başa vurdular

**Rusiya Federasiyasının Kaspiysk şəhərində aprelin 30-da start verilən böyüklər arasında güləş üzrə Avropa çempionatına may ayının 6-da yekun vurulub. Yarışları 4 qızıl, 5 gümüş və 9 bürünc medalla başa vuran Azərbaycan millisi ümumi komanda hesabında Rusiya və Türkiyədən sonra üçüncü olub.**

İlk olaraq döşək üzərinə yunan-Roma güləşçiləri çıxıblar. Yığma komandamız çempionatı 1 qızıl, 2 gümüş və 2 bürünc medalla başa vurub. Qızıl medalı millimizə Eldəniz Əzizli (55 kq) qazandırıb. Murad Məmmədov (60 kq) və Rəsul Çunayev (72 kq) gümüş medalla kifayətləniblər. Elvin Mürsəliyev (77 kq) və Rafiq Hüseynov (82 kq) isə bürünc medala sahib olublar. Bu nəticə ilə yığmamız komanda hesabında 113 xal toplayaraq Avropa üçüncüsü olub. Rusiya 169 xalla birinci, Gürcüstan 127 xalla ikinci nəticə göstərib.

Yunan-Roma güləşçilərinin çıxışından sonra qadın güləşçilər mübarizəyə qoşulublar. Komandamızın lideri Mariya Stadnik (50 kq) bu çempionatda da Avropanın ən güclüsü olduğunu sübut edib. Xüsusilə həlledici görüşdə Rumıniya idmançısını cəmi 32 saniyə ərzində təmiz qələbə ilə məğlub edən təmsilçimiz yeddiqat Avropa çempionu tituluna sahib olub. Komandamızın gənc üzvü, 76 kq çəki dərəcəsində çıxış edən Səbirə Əliyeva isə yarımfinalda Rusiya idmançısına uduzsa da, bürünc medal görüşünə haqq qazanıb. Həlledici qarşılaşmada onun rəqibi Ukrayna idmançısı olub. Gərgin və maraqlı keçən görüşü qalib başa vuran Səbirə Avropa çempionatının bürünc medalına sahib olub. 59 kiloqram çəki dərəcəsində yarışan Tatyana Omelçenko Belarus idmançısına tam üstünlüklə qalib gələrək çempionatın bürünc medalını qazanıb. 57 kq-da mübarizə aparan Alyona Kolesnikin də bürünc medal uğrunda rəqibi Belarus təmsilçisi olub. Cəmi 36 saniyə ərzində tam üstünlüklə qalib gələn güləşçimiz komandamızın aktivinə daha bir medal əlavə edib. 65 kq-da yarışan Elis Manolova isə finala qədər irəliləsə də, həlledici görüşdə Finlandiya təmsilçisi Petra Olliyə məğlub olaraq, gümüş medalla kifayətlənib.

Çempionatın son iki günündə sərbəst güləş yarışları keçirilib. Yığma komandamız yarışları 2 qızıl, 2 gümüş və 4 bürünc medalla başa vurublar. Qızıl medalları millimizə Georgi Edişeraşvili (57 kq) və Hacı Əliyev (65 kq) qazandırıb. Yalnız finalda məğlub olan Aleksandr Qostiyev (86 kq) və Şərif Şərifov (92 kq) gümüş medalla kifayətləniblər. Bürünc medalları isə yığmamıza Murtuz Müslümov (70 kq), Cəbrayıl Həsənov (79 kq), Nurməhəmməd Hacıyev (97 kq) və Cəmaləddin Məhəmmədov (125 kq) qazandırıblar. Bu nəticə ilə sərbəst yığmamız komanda hesabında 160 xal toplayaraq Avropa ikincisi olub. Rusiya 204 xalla birinci, Türkiyə 125 xalla üçüncü nəticə göstərib.




MİLLİMİZİN «QIZILLARI»

mozaika

qalaktika

## Günəş sistemi xaricində planetləri kəşf etmək üçün...



«SpaceX» şirkəti ABŞ Hərbi Hava Qüvvələrinin Kanaveral burnundakı bazasından Günəş sistemi xaricində planetləri kəşf etmək üçün kosmosa «TESS» adlı yeni teleskop göndərib. «Falcon9» raketinin daşıdığı yeni orbital teleskopun əsas məqsədlərindən biri də axtarılacaq planetlərdə canlıların yaşaması ehtimalını öyrənməkdir.

Teleskopu hazırlayan şirkət onun 60 gün müddətində elliptik orbitə çatacağını xəbər verib. Ekzotik planetlərin Yer planeti ilə onun peyki Ay arasında ən yüksək orbitdə müşahidəsinə də məhz yaxın iki ay ərzində başlanılacağı bildirilir. Milyarder Elon Muskun maliyyələşdirdiyi və Massaçusets Universiteti mütəxəssislərinin başa çatdırdıqları bu layihə təqribən 340 milyon dollara başa gəlib.

NASA-nın məlumatına görə, bundan əvvəl kosmosa göndərilmiş «Kepler» teleskopu ikiillik missiyası dövründə Yer planetindən 33 işıq ili uzaqda yerləşən ulduzların müşahidəsini aparıb. Hazırkı teleskop isə genişbucaqlı dörd videokamera ilə təchiz olunub və 200 mindən çox ulduzu müşahidə edəcək. Astronomlar bu müşahidələr zamanı minlərlə yeni planeti kəşf etməyin mümkün olacağına ümid bəsləyirlər.

Massaçusets Universitetinin professoru, «TESS» teleskopunun əsas tədqiqatçısı Corc Riker keçirdiyi mətbuat konfransında bildirib ki, yeni müşahidələr nəticəsində tədqiqatçıların ehtimal etdiyindən də çox sayda planet kəşf oluna bilər. Teleskopun Günəşdən daha soyuq və uzunömürlü «Qırmızı cırtdanlar» adlandırılan ulduzlar sistemində yerləşdiriləcəyi və müşahidələri buradan aparacağı açıqlanıb.

kosmos

## Dünyanı real zamanda izləmək üçün orbital şəbəkə



«EarthNow» şirkəti orbitdən dünyanın istənilən nöqtəsinin şəklini çəkmək və saniyələr ərzində onun videosunu təqdim etmək imkanına malik olacaq. Planetin hər yerində real zamanda nə baş verdiyini faktiki izləmək mümkün olacaq.

Şirkət nümayəndələrinin bildirdiyinə görə, vəsaitlər real zamanda Yer kürəsini müşahidə etmək üçün innovativ və unikal xidmət təminatı üzrə sistemin layihəsinin təkmilləşdirilməsinə yönəldilib.

Qreq Vaylerin «OneWeb» şirkəti artıq siqnalın ötürülməsi zamanı son dərəcə aşağı ləngiməyə malik peykləri kosmosa buraxıb. Onun hədəfi isə artıq 2020-ci ilə genişzolaqlı formatda peyklərin tam şəbəkəsinin yaradılmasıdır. «EarthNow» şirkəti «OneWeb»in texnologiyasının təkmilləşdirilmiş versiyasından istifadə edəcək.

Ekspertlərin qiymətləndirməsinə əsasən, sistemin ümumi dəyəri təxminən bir milyard dollar təşkil edəcək. Şirkətin əsas məqsədi öz xidmətlərini dövlətlərə və əyləncə xidmətləri sahəsində ixtisaslaşan şirkətlərə təqdim etməkdir. Şirkət, həmçinin sistemin digər imkanlarını da nəzərdən keçirir.

mədəniyyət

## Tbilisidə «Əli və Nino» tamaşasının premyerası olub



Gürcüstanın Tsxinvali Akademik Dram Teatrı vane «Əli və Nino» əsərinin motivləri əsasında yeni tamaşa hazırlayıb. Mayın 1-də Tbilisidəki Şota Rustaveli Teatrında tamaşanın premyerası olub.

Azərbaycanın və Gürcüstanın dövlət müstəqilliyinin əldə olunmasının 100 illiyinə həsr edilmiş tamaşanın premyerasında ölkəmizin səfirliyinin əməkdaşları, Gürcüstan rəsmiləri, mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.

İvane Maçabeli adına Tsxinvali Akademik Dövlət Dram Teatrının bədii rəhbəri və tamaşanın rejissoru Qoça Kapanadze bildirib ki, Gürcüstan Mədəniyyət Nazirliyinin layihəsi əsasında hazırlanmış tamaşanın yaxın vaxtlarda Bakıda, mayın 19-da isə Gürcüstan parlamentində nümayişi nəzərdə tutulub.

Qeyd edək ki, Qurban Səidin müəllifi olduğu «Əli və Nino» əsəri XX əsrin əvvəllərində Cənubi Qafqazda baş verən siyasi hadisələr fonunda azərbaycanlı gənc Əli və gürcü qızı Nino arasında məhəbbət hekayəsindən bəhs edir.

## Almaniyada Azərbaycan musiqi axşamları




Berlinin Britz sarayının (Schloss Brits) mədəniyyət fondunun təşkilatçılığı ilə azərbaycanlı gənc pianoçu Nərmin Nəcəflinin solo konserti keçirilib. N.Nəcəfli repertuarına Lüdviq Van Bethoven, Maurice Ravel, Franz Liszt və Robert Schumanın əsərlərini daxil edib. Gənc ifaçımızın konserti tamaşaçıların böyük rəğbəti və alqışlarına səbəb olub.

N.Nəcəfli 2014-cü ildə Bülbül adına orta ixtisas məktəbini bitirib, hazırda fortepiano ixtisası üzrə təhsilini Hannover şəhərində yerləşən Musiqi, Dram və Media Universitetində davam etdirir. 2007-ci ildə Azərbaycan Respublikası Prezidentinin xüsusi təqaüdünə layiq görülən N.Nəcəfli 2016-cı ildə mədəniyyət sahəsindəki uğurlarına görə gənclər üçün prezident mükafatına layiq görülüb.

Eyni zamanda, Berlində yerləşən Nikodemus Mədəniyyət Kilsəsində (Kulturkirche Nikodemus) Almaniyadakı səfirliyimizin dəstəyi ilə Azərbaycanın caz musiqi ifaçıları Rain Sultanov və Elçin Şirinovun «Tsikl» adlı konserti keçirilib.

Konsert proqramında Rain Sultanov və onu pianinoda müşayiət edən Elçin Şirinov tərəfindən R.Sultanovun Almaniyada buraxılmış yeni «Tsikl» adlı albomunda yer alan musiqiləri səsləndirilib. Müvəffəqiyyətlə baş tutan konsertdəki ifalar tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb.

Hər iki tədbirdə Almaniyanın ictimai-siyasi dairələrinin və Azərbaycan diasporasının nümayəndələri iştirak ediblər.

**Müdriklər deyib ki...**



***«Özünüzü ruhdan düşməyə qoymayın, sonda mütləq uğur qazanacaqsınız».***

*Avraam Linkoln (1809-1865)*